

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi - ZƏRİFƏ XANIM ƏLİYEVA**



4


SƏS

№ 072 (6755)

28 aprel 2023-cü il.
Qiyməti 60 qəpik


# "Ermənistan üzərinə düşən öhdəliklərini yerinə yetirməyib"



2

**Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib**

# Paytaxtımızda yenidən Formula 1 həyəcanı




5

## Qlobal böhran şəraitində Azərbaycanın ərzaq təhlükəsizliyi



14

## XİN: "Üçüncü tərəflərin müdaxiləsi qəbuledilməzdir"



2

## Turizm sahəsində GÖZLƏNİLƏN İNKİŞAF




11



16

## Kimlər Dövlət hesabına vəkillə təmin olunacaq?

## Qırmızı ölüm



11

# "Ermənistan üzərinə düşən öhdəliklərini yerinə yetirməyib"

## Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib. Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Ketrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Ketrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "ABŞ-ın təşəbbüsü nəticəsində Ermənistan yenidən danışıqlara qayıdır"

**"Azərbaycan sülh müqaviləsinə inanmasaydı, sülhün təşəbbüskarı olmazdı. Prezident İlham Əliyev keçmiş münaqişənin üzərindən keçərək 2021-cil ildə sülh müqaviləsinin imzalanmasının vacibliyini səsləndirmişdi. Sülh müqaviləsi üçün təkliflər də Azərbaycan tərəfindən edilmişdi."**

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə keçirdiyi mətbuat konfransında bildirib. Ceyhun Bayramov deyib: "2022-ci ilin fevralında 5 məlum baza prinsipi hazırlandı, ötən ilin oktyabr ayında sülh müqaviləsinin ilk layihəsi Ermənistana təqdim edildi. ABŞ-ın təşəbbüsü nəticəsində Ermənistan yenidən danışıqlara qayıdır. Biz bu prosesi dəstəkləyirik.

Azərbaycan açıq və şəffaf şəkildə öz Konstitusiyasına və hüquqlarına uyğun öz ərazisində addım atıb.




Bu addımdan iki il yarım əvvəl problemin mahiyyətini izah edib deyib. Biz bu iki il yarımlıq müddət ərzində bir dəfə də olsun Fransadan Ermənistana çağırış görmədik."

C.Bayramov vurğulayıb ki, Azərbaycanın suveren ərazilərində olan 10 min qanunsuz silahlının maliyyələşdirilməsi bölgədə gərginliyin bir nömrəli səbəbidir.

# XİN: "Üçüncü tərəflərin müdaxiləsi qəbuledilməzdir"

Azərbaycan tərəfi erməni sakinlərlə dialoqu ölkə qanunvericiliyi çərçivəsində həyata keçirəcək və üçüncü tərəflərin bu məsələyə müdaxiləsi qəbuledilməzdir.



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis edilməsi ilə bağlı Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 27-də hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

"Ermənistan tərəfini əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara məsuliyyətlə və konstruktiv yanaşmağa, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik", - deyə açıqlamada qeyd olunub.

# Azərbaycanla Avropa İttifaqı - Müstəqil siyasət, etibarlı tərəfdaş!

## İLHAM ƏLİYEV: "Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var"

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiy xarici siyasət kursu ölkəmizi dünya birliyinin etibarlı və məsuliyyətli tərəfdaşına çevrib. Xüsusilə də, xarici siyasət sahəsində əldə olunan uğurlar Azərbaycanını Avropaya və dünya birliyinə inteqrasiyasını daha da sürətləndirir, ölkəmizlə sıx münasibətlər qurmaq istəyən ölkələrin sayının artması da deyilənlərin təsdiqidir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır, həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməklə bu sahədə geniş təcrübəyə malik bir dövlətdir və bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Belə ki, istər 2020-ci il sentyabrın 27-nə kimi, istərsə də 27 sentyabrdan bu günə kimi regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin nəticəsidir ki, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Elə bu günlərdə - aprelin 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstan Prezidenti Rumen Radevin rəsmi dəvəti əsasında həyata keçirilən səfəri Azərbaycan ilə Aİ arasında mühüm əlaqələrin olduğunu və ölkəmizlə yaxın, etibarlı tərəfdaş olduğunu təsdiqləyir. Dövlət başçımızın səfər zamanı iki ölkələr arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumunun imzalanması mərasimi və bu mərasimdəki çıxışı Avropa İttifaqı ilə ölkəmiz arasında sıx əməkdaşlıq əlaqələrin mövcuduluğunun göstəricisidir.










TƏHLİL

### AZƏRBAYCAN AVROPANIN ETİBARLI TƏRƏFDAŞIDIR VƏ BU SADƏCƏ ENERJİ SAHƏSİNDƏ DEYİL, BİR ÇOX DİGƏR SAHƏLƏRDƏ DƏ BELƏDİR

Prezident İlham Əliyev həmin mərasimdə çıxışı zamanı bildirmişdir ki, Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var: "Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır və bu sadəcə enerji sahəsində deyil, bir çox digər sahələrdə də belədir. Həmçinin sizə bildirmək istərdim ki, Azərbaycan Avropa İttifaqı üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında razılaşma və bəyannamələr imzalayıb və qəbul edib. Beləliklə, bu o deməkdir ki, Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var".

Bəli, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasət nəticəsində bu gün ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənməkdədir. Azərbaycanın regional və qlobal təhlükəsizliyə fundamental töhfələr verməsi də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Ölkəmizin praqmatik enerji siyasəti regional və qlobal işbirliyinə, beynəlxalq təhlükəsizliyə xidmət edən yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir. Bu gün Azərbaycan sahib olduğu zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan aparıcı dövlətlərdəndir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə milli dövlətlərin, o cümlədən güc mərkəzlərinin uzunmüddətli perspektiv üçün əməkdaşlıq münasibətlərini inkişaf etdirmək istədiyi tərəfdaş ölkələrdəndir. Və bu səfər Avropa İttifaqı ilə Azərbaycan arasında qarşılıqlı, faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin olduğunun sübutudur. Çünki

### AZƏRBAYCANA AVROPADA YÜKSƏK DƏYƏR VERİLİR

Bəli, bu gün Azərbaycan Avropanın enerji mənbələrinin diversifikasiyasında və enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Avropanın enerji təhlükəsizliyinin təmini istiqamətində atılan mühüm addımların, imzalanan müqavilələrin mərkəzində məhz Azərbaycan dayanır. Və elə aprelin 25-də Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması da bunun növbəti sübutudur. Və həmin mərasimdə Azərbaycanla bağlı səslənən fikirlər bir daha Azərbaycanın Avropada, etibarlı tərəfdaş kimi qəbul etmələri ölkəmizin yüksək nüfuza malik olduğunu təsdiqləyir.

Belə ki, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Kadri Simson deyib ki, "Azərbaycan həm etibarlı tərəfdaş, həm də böyük qaz potensialına malik olan ölkədir".

Bolqarıstan Prezidenti Rumen Radev isə "Azərbaycan hər zaman etibarlı tərəfdaş kimi çıxış edib və üzərinə götürdüyü öhtəlikləri daim yerinə yetirib" deyə vurğulayıb. Bir sözlə, imzalanma mərasimində səsləndirilmiş bu fikirlər bir daha göstərdi ki, Azərbaycan Avropanın əhəmiyyətli və etibarlı enerji tərəfdaşı kimi özünü təsdiq edib. Və Prezident İlham Əliyev Anlaşma Memorandumunun imzalanması mərasimində çıxışı zamanı da bildirdi ki, Azərbaycan etibarlı tərəfdaş kimi də Avropada yüksək nüfuza malikdir. Bu

### AZƏRBAYCANIN 27 İLDƏN ÇOXDUR Kİ, AVROPANIN ETİBARLI XAM NEFT TƏDARÜKÇÜSÜ OLMASIDIR

Anlaşma Memorandumunun imzalanması mərasimində Prezident İlham Əliyev bildirmişdir ki, 27 ildən çoxdur ki, etibarlı xam neft tədarükçüsüyük, elektrik enerjisi də bizim ixracımızın bir hissəsidir. "Avropa İttifaqı ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır"- deyən Prezident İlham Əliyev onu da vurğulamışdır ki, bu gün imzalanan Anlaşma Memorandumu Avropanın enerji təhlükəsizliyini gücləndirəcək və Azərbaycanın bir çox Avropa ölkəsinə daha çox qaz ixrac etməsinə imkan verəcək: "Bu gün artıq burada Avropa Komissiyasının enerji komissarı xanım Kadri Simson, eləcə də Avropa Komissiyasının digər rəsmiləri və digər dostlar tərəfindən də qeyd edildiyi kimi, Azərbaycan Avropanın etibarlı tərəfdaşıdır və bu sadəcə enerji sahəsində deyil, bir çox digər sahələrdə də belədir. Həmçinin sizə bildirmək istərdim ki, Azərbaycan Avropa İttifaqı üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında razılaşma və bəyannamələr imzalayıb və qəbul edib. Beləliklə, bu o deməkdir ki, Aİ ölkələrinin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox vacib gələcəyi var".

Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, Aİ-yə qaz ixracı bu il Azərbaycanın ümumi qaz ixracının təxminən yarısını təşkil edəcək: "Ötən ilin iyulunda Azərbaycan və Avropa Komissiyası arasında enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb. Bu memorandum əsasında biz 2027-ci ilədək Avropa İttifaqı (Aİ) bazarına qaz tədarükümüzü iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qaz tədarük etdik. Bu il bizim hədəfimiz 12 milyarddır. Bu isə bizim bu il 24,5 milyard kubmetr olması planlaşdırdığımız ümumi ixracımızın demək olar ki, yarısını təşkil edəcək. Əlbəttə bizim hasilatımız və ixracımız böyüyəcək. Çünki biz mövcud qaz yataqlarından hasilatı artıracağıq və qarşıdakı illərdə yeni yataqlarda təbii qaz istehsalını gözləyirik".

Dövlətimizin başçısı onu da vurğulamışdır ki, Azərbaycan tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirməyə və birlikdə bütün hədəflərə nail olmağa hazırdır. Bir sözlə, bütün bu deyilənlər bir daha təsdiqləyir ki, Azərbaycan etibarlı tərəfdaş kimi də Avropada yüksək nüfuza malikdir və sözügedən imzalanma mərasimindəki çıxışlar da bunu bir daha təsdiqləyir və bu uğurların, bizə olan bu yüksək inamın və verilən dəyərin arxasında Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti dayanır.

**RƏFİQƏ KAMALQIZI**

# Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi - ZƏRİFƏ XANIM ƏLİYEVA

## Prezident İlham Əliyev: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir"

Bu gün əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə xanım Əliyevanın doğum günüdür. Akademik Zərifə Əliyeva təkcə öz adını tibb tarixinə yazmadı, eyni zamanda, Azərbaycan oftalmologiyasının adını bütün dünyada ucaltdı. 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım xalqına ləyaqətlə xidmət edən parlaq simaya çevrilib. Öz parlaq istedadını zəhməti ilə vəhdətdə ortaya qoyan Zərifə xanım elm, ədalət, səxavət, səbr, ismət kimi keyfiyyətləri əməli fəaliyyətində və özündə birləşdirib. Bu dəyərlər içərisində güclü, fədakar ziyalı kimi tanınıb və şöhrətlənib. Məxsusi dəyərləri ilə seçilən və sevilən, ən yüksək bir pillədə dayanan Zərifə xanım Əliyevanın adı əbədidir. Yaşanılan ömür yolunun sərlövhələri Onu hər zaman örnək olacaq bir simaya çevirib.

Özünəməxsus nümunəvi yolu olan Zərifə xanımın zəngin və şaxəli həyat yoluna nəzər saldıqda bu həyat yolunda bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqətdən yayınmır: ana ömrü, tədqiqatçı ömrü, həkim ömrü, alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə, zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan çalarları və zəkası ilə qaranlıq dünyalara şəfa verdi. Duyğulu, düşüncəli, fərqli bir dünyası ilə əməli fəaliyyəti cəmləşdirib həyat fəlsəfəsinin silinməyən izlərini özü də hiss etmədən gərgin axtarışları, zəhməti, elmi biliyi ilə bu aləmə həkk etdi. Bu ömrün yazılmış səhifələrində Zərifə xanımın portretini sezməmək mümkün deyildi.

Qəlb dünyasının işığı tez bir zamanda Onun Azərbaycan məkanında tanınmasına gətirib çıxardı. Sonralar bunun coğrafi məkanı daha da genişləndi. Sərhədləri ilə tanınan dünyamızı yaratdığı əsərləri, elmi kəşfləri, axtarışların nəticəsi birləşdirdi.

### OFTALMOLOGİYA SAHƏSİNDƏ ƏN MÖTƏBƏR MÜKAFATA - SSRİ TİBB ELMLƏRİ AKADEMİYASININ M.İ.AVERBAX ADINA MÜKAFATINA LAYİQ GÖRÜLƏN İLK QADIN

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayır. Eyni zamanda, O, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirirdi. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olaraq, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirirdi. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilir.



### "ONUN ƏSƏRLƏRİ, ELMİ MONOQRAFİYALARI BU GÜN DƏ ÖZ AKTUALLIĞINI İTİRMİR"

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil edir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə edir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilir. Elmi tədqiqatların nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail olur. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü görür. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülür. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Zərifə xanımın, sözün əsl mənasında, böyük həkim olduğunu bildirmişdi: "O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir.

### AZƏRBAYCAN OFTALMOLOGİYASININ ADINI BÜTÜN DÜNYADA UCALDAN ALİM

1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratdı.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Zərifə Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi Onun böyük xidmətlərinin, çoxillik səmərəli elmi tədqiqat işinin etirafıdır.

Akademik Zərifə Əliyeva ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur.

### PEŞƏKAR HƏKİM VƏ XEYİRXAH İNSAN

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyevanın elmi fəaliyyətini, peşəkarlığını yüksək qiymətləndirmişdilər. Belə ki, Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!"

Zərifə xanımın gördüyü bütün işlərdə insan amili dayanırdı. İnsanlara şəfa vermək istəyi daynırdı. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Çünki O, həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə bağlı da fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır".

### "AZƏRBAYCAN QADINI BÜTÜN DÜNYADAKI QADINLARDAN GÖZƏLDİR"

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ANA olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi.

Əziz anam, şirin sözlü anam,
Qəlbin kövrək, eşqin solmaz bahar.
Gülər üzlü, qara gözlü anam,
Hara getsəm gözün mənə baxar.
Ana qəlbin layla olar gəzər,
Doğma səsin ömrü-günü bəzər.

Zərifə xanım Əliyeva işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın olaraq mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Ümumiyyətlə, Zərifə xanımın həyatı Azərbaycan qadınları üçün bir məktəbdir. Elə bir məktəbdir ki, uzun illər boyu öyrəniləcəkdir. Unudulmaz və əziz xatirəsinin yad etdikcə bu parlaq Şəxsiyyətin elmimizə, səhiyyəmizə, milli və mənəvi varlığımıza bəxş etdiyi dəyərləri təkrarən dərk edir, Onun ölməz ruhu qarşısında bir daha baş əyirik.

### "ZƏRİFƏ XANIM KİMİ HƏYAT YOLDAŞIM OLDUĞUNA VƏ O, AİLƏMDƏ ÇOX YÜKSƏK MƏNƏVİ MÜHİT YARATDIĞINA GÖRƏ MƏN XOŞBƏXT OLMUŞAM"

Zərifə xanımın ömür-gün yoldaşı dünya şöhrətli Şəxsiyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycan qadınları haqqında deyirdi: "Azərbaycan qadını mərd, sədaqətli, qeyrətli, namuslu qadındır. Mən dünyanın çox yerini gəzmişəm, dünya qadınlarını görmüşəm, fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir".

Həqiqətən də Azərbaycan qadınları dünyada yaxşı nə varsa ona layiqdir. İnsanlığa və insanlara qiymət verməkdə mahir, səriştəli olan Müdrik Siyasətçi Ulu Öndər Heydər Əliyev bu cəhətdən də gözəl sədaqətli həyat yoldaşı, peşəkar alim, qayğıkeş ana, mehriban nənə kimi Zərifə xanım Əliyeva seçimində yanılmamışdır. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Zərifə xanım Azərbaycan xalqına məxsus, milli-mənəvi, əxlaqı dəyərləri özündə cəmləşdirmiş bir Ana idi. İşinin çox olmasına baxmayaraq, Zərifə xanımın gözəl övladlar yetişdirməsi və ictimai fəaliyyəti bu gün də örnək olacaq bir fəaliyyətdir. O, əməli işin xoş təəsüratları ilə hamının qəlbində daim yaşayır və yaşayacaqdır.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunub.

Böyük ziyalılığı, xeyirxahlığı ilə sevilən Zərifə Əliyeva 62 illik ömrünə elə əməlləri sığdırmışdır ki, onu məhəbbətlə duymamaq mümkün deyildir.

**ZÜMRÜD BAYRAMOVA**

# Paytaxtımızda yenidən Formula 1 həyəcanı

**Paytaxt Bakımız aprelin 28-dən 30-dək növbəti dəfə Formula 1 yarışlarına ev sahibliyi edəcək. Həmişə olduğu kimi, mötəbər yarış bu dəfə də öz azarkeşlərinə böyük sevinc hissini yaşadacaqdır. Hər il olduğu kimi, bu il də yarışların yüksək səviyyədə təşkili üçün lazımı işlər görülüb. Bu o deməkdir ki, Azərbaycan beynəlxalq tədbirlərin təşkilində yüksək təşkilatçılıq bacarığına malik olan ölkədir. Heç şübhəsiz ki, beynəlxalq idman yarışlarına ev sahibliyi edən Azərbaycan növbəti dəfə öz təcrübəsindən yararlanaraq, Formula 1 yarışlarını da uğurla başa vuracaq.**











Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları yarışacaqlar. İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görmüş olacaqlar. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Plotlar əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yenidən yarışacaqlar. Məlumdur ki, dünya ölkələrində keçirilən Formula 1 yarışları çərçivəsində Bakıda keçirilən ən yaxşı yarış hesab edilir. Bir daha dünya görəcək ki, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə uğurla ev sahibliyi edir. Yenidən dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünür. 2023-cü il Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində ilk dəfə sprint yarış keçiriləcək. Ötən il keçirilmiş üç sprint yarışının sayı ikiqat artaraq 2023-cü il mövsümündə altıya çatıb. Qeyd edək ki, sprint yarışları ötmələrin və yüksək sürətli həmlələrin əlverişli olduğu treklərdə keçirilir və xüsusi dramatikliyi ilə yadda qalaraq geniş azarkeş auditoriyası cəlb edir. Ən sürətli şəhər yarışlarından hesab olunan Bakı yarışı da bu sıradadır. Sprint yarışlarına Azərbaycan ilə yanaşı, Avstraliya, Belçika, Braziliya, ABŞ və Qətərdə də ev sahibliyi edəcək.

Son illərdə Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına və onlarla belə irimiqyası beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan 2016-cı ildən başlayaraq "Formula-1" yarışlarına da uğurla ev sahibliyi edir. Təbii ki, bütün bu və ya digər idman yarışlarının ölkəmizdə təşkili Azərbaycanın idman siyasətinin uğuru, beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin, idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin göstəricisidir. Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Bildiyimiz kimi, Formula 1 yarışları yarım milyarda yaxın tamaşaçı auditoriyasına görə dünyada futboldan sonra ikinci yeri tutur. Bu sayda tamaşaçı auditoriyasına malik yarış Azərbaycanın dünyada daha da tanıdılmasında müstəsna rola malikdir. Formula 1 Azərbaycan Qran-Prisində 1500-dən çox könüllü iştirak edəcək.

## "FORMULA-1" YARIŞINI KEÇİRƏN ŞƏHƏRLƏR İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİN YA PAYTAXT ŞƏHƏRLƏRİ, YA DA Kİ, BÖYÜK ŞƏHƏRLƏRİDİR"

Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən "Formula-1" Avropa Qran-Prisi yarışlarının dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Formula-1 yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: "Birincisi, "Formula-1" yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, "Formula-1" yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə". Əlbəttə ki, "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bildilər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

## YERLİ VƏ BEYNƏLXALQ YARIŞLARIN KEÇİRİLMƏSİ ÜÇÜN MÜASİR MƏKAN

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir.

Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Separatçıların qəbul etməli olduqları YENİ REALLIQLAR

Azərbaycanın qələbəsi, Ermənistanın isə rüsvayçı məğlubiyyəti ilə 44 günlük müharibənin başa çatmasından, üçtərəfli bəyanatın imzalanmasından iki ildən də artıq vaxt keçməsinə baxmayaraq, nə ermənisi separatçıların özlərini məğlub kimi aparırdılar, nə də rəsmi İrəvan üçtərəfli bəyanata məhəl belə qoymurdu. Görürdük ki, ermənilər ərazilərimizdə qalan separatçıların qalıqlarına silah-sursat daşımaqda davam edir və buna olunan etirazları isə başa düşmək istəmirdilər. Rəsmi Bakının dəfələrlə bu barədə xəbərdarlığına baxmayaraq nəticə çıxarmayan ermənilər indi artıq nəzarət-keçid məntəqəsini gördükləri zaman lazımi nəticə çıxarmaq, yeni reallıqlarla hesablaşmaq məcburiyyətində qaldılar və göründüyü kimi bu addım həqiqətən də tam zamanında atılmış oldu.



Ötən ilin 12 dekabr tarixindən etibarən Laçın yolunda ekoaktivistlərin etiraz aksiyası başladığı zaman separatçılar artıq öz nəticələrini çıxarmalı idilər. Dərk etməli idilər ki, onların hədsizlikləri həm nəzarət altındadır, həm də buna imkan verilməyəcək. Anlamalı idilər ki, etiraz aksiyalarına başlanılması ilə faktiki olaraq nəzarət Azərbaycan tərəfinə keçib və artıq yeni situasiya ilə barışmaq məcburiyyətindədirlər. Amma biz bunun əksini müşahidə etdik. Müşahidə etdik ki, ermənilər heç də nəticə çıxarmaq fikrində deyillər və elə zənn edirdilər ki, həmişəki kimi Ermənistandan silah-sursat, hərbi texnika, minalar və canlı qüvvə daşıyacaqlar, istənilən şəxs də rahat şəkildə Azərbaycan ərazisinə girib-çıxa biləcək. Deməli, özlərini qanmazlığa qoyanları daha kəskin şəkildə başa salmaq tələb olunurdu və belə də oldu, nəzarət-keçid məntəqəsinin yaradılması ilə qandırıldı ki, bundan sonra ağıllarına gələni etməyə imkan verilməyəcək və yeni reallıqla hesablaşmalıdırlar.

Doğrudur, ekoaktivistlərin aksiyaları başladığı andan etibarət Laçın yolunda nəzarət gücləndirilmişdi. Qanunsuz daşımalara da imkan verilmirdi. Hətta Ermənistan ərazisindən silah-sursat daşınmasının da bu yolda qarşısı alınmışdı. Lakin müşahidə olundu ki, separatçılar qanunsuz daşımaları - silah-sursat, hərbi texnika, mina və canlı qüvvə daşımalarını hansısa xəlvəti yollarla həyata keçirmək niyyətindədirlər və bu əməllərinin də şahidi olduq. Şahidi olduq ki, separatçılar torpaq yollardan istifadə etməklə, özü də sülhməramlıların müdafiəsi ilə öz çirkin niyyətlərini həyata keçirməkdə, ermən silahlılarının Qarabağ ərazisindəki qalıqlarını silah-sursatla, əlavə canlı qüvvə ilə təmin etməkdədirlər. Bunun isə yaxşı heç bir nəticə verməyəcəyi nəinki güman edilirdi, dəfələrlə şahidi olduq ki, məhz belə əməlləri sayəsində təxribatlar törədildi, gətirdikləri minalar nə qədər vətəndaşımızın həyatını itirməsinə və şikəst olmasına, sağlamlığını itirməsinə səbəb oldu. Deməli, bunların yolları tamamilə kəsilməli idi və belə də oldu. Nəzarət-keçid məntəqəsinin yaradılması ilə əlləri hər şeydən üzüldü.

Bir qədər əvvəl Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar sayəsində separatçıların xəlvəti şəkildə istifadə etdikləri həmin o torpaq yollar da nəzarətə götürülmüşdü. Hətta separatçıların başda Ermənistan olmaqla, ümumilikdə xarici aləmlə əlaqələri də nəzarətdə saxlanılırdı. Bəlli oldu ki, onlar bundan da nəticə çıxarmadılar. Yenə də onların xəlvəti yollar axtardıqları müəyyən edildi. Müəyyən edildi ki, həmin separatçılar əlavə keçid yolları axtarışındadırlar və bu minvalla hələ daha hansı yollara əl atacaqları bəlli deyil. Deməli, bəlli oldu ki, separatçılar kor tutduğunu buraxmadığı kimi, öz çirkin əməllərindən əl çəkmək niyyətində deyillər və onların yolları tamamilə kəsilməsə hədlərini dərk edən deyillər. Elə bu baxımdan da nəzarət-keçid məntəqəsinin yaradılmasının aktuallığı, vacibliyi özünü təsdiq etdi və belə bir məntəqənin qurulması ilə onların əvvəlki ümidləri puça çıxdı. Laçın yolunda nəzarət-keçid məntəqəsinin qurulması erməni separatçılarının, Qarabağ ərazisində gizlənən silahlıların qalıqlarının, ümumilikdə, hadisələri hərbi eskalasiyaya daşımaq istəyən ermənilərin əl-qolunu bağladı və hesablaşmalı olduqları reallıqla qarşı-qarşıya qoydu.

Öz suveren ərazilərini qanunsuz müdaxilələrdən qorumaq və sərhəd-keçid məntəqələrində nəzarəti təmin etmək Azərbaycanın hüququdur, haqqıdır. Ölkəmizin bu hüququna beynəlxalq ictimaiyyət də hörmətlə yanaşmalıdır. Sərhəd-keçid məntəqəsinin yaradılmasına və ərzilərin qanunsuz müdaxilələrdən qorunmasına eləcə də Ermənistan tərəfi də heç bir narazılıq belə ifadə edə bilməz. Əksinə, Ermənistan tərəfi Azərbaycanın suveren ərazisinə müdaxilə cəhdlərindən imtina etməli olduğunu gec də olsa anlamalıdır. Bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyünə qarşı cəhdləri dayandırmalı və bununla öz suverenliyini də, ərazi bütövlüyünü də təhlükələrə atmamalıdır.

Xatırladaq ki, Ermənistan Praqa və Soçi sənədləri ilə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyıb. Bu ölkənin baş naziri hər dəfə beynəlxalq səviyyəli görüşlər zamanı ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tanıdığının öz dili ilə ifadə də edib. Daxili auditoriyadan qorxduğu və çəkindiyi üçün, öz hakimiyyətini qorumağa çalışdığı üçün bəzən özünü elə göstərir ki, guya bunu unudub. Lakin bununla belə, imkan tapdığı zaman, özündə cəsarət tapıb bunu dilə gətirməyə də cəhd edir. Məsələn, parlamentdə sonuncu çıxışı zamanı Nikol Paşinyan rəsmi şəkildə bunu dilə gətirməli oldu və ölkəmizin ərazi bütövlüyünü tanımağın labüdlüyünü bildirdi. Doğrudur, söhbət Vovayeviçin dediklərinə etibar etməkdən getmir, amma hər bir halda, işğalçı ölkənin rəhbərinin belə bir şəkildə etirafı olduqca diqqət çəkən məqamdır. Deməli, artıq rəsmi İrəvan ölkəmizin ərazi bütövlüyünü qəbul etmək məcburiyyətində olduğunun fərqindədir və yeni reallıqla hesablaşmaqdan başqa çarənin olmadığını qəbul edir.

Diqqəti çəkən məqamlardan biri də ermənipərəst qüvvələrin bu anda hansı mövqedə olması və ya olacağıdır. Maraqlıdır, görəsən, Ermənistan hakimiyyəti, şəxsən Paşinyan özü Azərbaycanın ərazi bütövlüyünü tanımağın vacibliyini parlamentdə sonuncu çıxışı zamanı rəsmi şəkildə bəyan edirsə, o zaman ermənipərəstlər, ermənilərin havadarları nə fikirdə ola bilərlər? Bir halda ki, ermənilərin "başbilənləri" ölkəmizin ərazi btövlüyünü tanımaqdan başqa çıxış yolu görmürlər, o halda erməni təəssübkeşləri hansı üzlə bunun əksini ifadə edə, başqa mövqe nüçayiş etdirə bilərlər? Başda elə Makron və fransız bacıları olmaqla, bütün ermənipərəslər özləri də yeni reallıqla razılaşmaq məcburiyyətində olduqlarını anlamalıdırlar. Bundan sonra Azərbaycan ərazilərində kimlərinsə qanunsuz müdaxilələrinə yol verilməyəcəyini birdəfəlik qəbul etməlidirlər.

Sözsüz ki, separatçı rejim son günlərini yaşadığının fərqindədir, amma bununla belə ərazilərimizdə məskunlaşan erməni əsillilərin reinteqrasiyasına, Azərbaycan bayrağı altında yaşamağı qəbul etmələrinə mane olmaqdan vaz keçmək niyyətində deyil. Hətta həmin ərazilərimizdə yaşayan erməniləri buna görə təhdid də etdikləri bəllidir. Bununla belə həmin ərazilərdə yaşayan ermənilər bilməlidirlər ki, artıq separatçılara uymaq, onlara aldanmaq onların özləri üçün böyük fəlakət deməkdir. Onlar özləri də yeni reallıqları qəbul etməlidirlər və məhz özləri separatçı rejimə qarşı çıxaraq öz müqəddəratlarını həll etməlidirlər. Rəsmi Bakı ərazilərimizdə məskunlaşmaq, yaşamaq istəyən ermənilər qarşısında iki yol qoyub, bunlardan biri Azərbaycan bayrağı altında yaşamaq, digər yol isə, bununla razılaşmayacaqları təqdirdə ərazilərimizi tərk etməkdir. Əslində, bu çox ədalətlidir və ermənilər bilməlidirlər ki, onlar üçün üçüncü bir yol olmayacaq və bu, ümumiyyətlə mümkün deyil. Çünki Azərbaycan öz ərazilərində ikinci bir erməni dövlətinin qurulmasına, yaradılmasına, eləcə də torpaqlarında ağalıq etməsinə imkan verməyəcək. Deməli, Azərbaycanın təklif etdiyi reinteqrasiya, bizim bayrağımız altında yaşamaq qaçılmaz reallıqdır və separatçıların təhlükəli oyunlarından imtina edib bunu qəbul etmək ən doğru seçimdir. Bir sözlə, Laçın yolunda nəzarət-keçid məntəqəsinin qurulması, bununla da Azərbaycanın nəzarəti tamamilə ələ aldığı qəbul etməkdən başqa çarəsi olmayan yeni reallıqdır və bu reallıq qarşısında separatçılar da, onları dəstəkləyənlər də, ümumilikdə ermənipərəstlər də acizdirlər.

***İnam Hacıyev***

# Heydər Əliyev irsi Azərbaycanın milli sərvətidir

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Cəbrayıl rayon təşkilatı aprelin 27-də "Heydər Əliyev irsi Azərbaycanın milli sərvətidir" mövzusunda tədbir keçirib.**

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Sonra Şəhidlər Abidə Kompleksi ziyarət olunub, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Biləsuvar rayonunda Cəbrayıl rayon sakinlərinin müvəqqəti məskunlaşdığı 4 saylı qəsəbənin klubunda baş tutan tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev bildirib ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi respublikamızda və ölkə xaricində təntənəli şəkildə qeyd edilir: "Ulu Öndərin ölkəyə rəhbərlik dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir".

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında vurğulayıb ki, ümummilli lider Heydər Əliyev unikal bir şəxsiyyət idi. O, Azərbaycan dövlətini və xalqını sevməyin əsl nümunəsini göstərən ən böyük azərbaycanlı idi. Ümummilli Liderin siyasi rəhbərlik və dövlət idarəçiliyi nümunəsi nəinki həmin dövrün insanları, hətta gələcək nəsillər üçün örnəkdir.

Milli Məclisin deputatı Ceyhun Məmmədov qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən danışıb.





Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxışında qeyd edib ki, ulu öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin möhtəşəm uğurlara imza atdığını söyləyib.

Digər çıxış edənlər vurğulayıblar ki, bugünkü tarixi nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirməsi dayanır. Bildirilib ki, Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf etməkdədir.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri diplom, fəxri fərman və təşəkkürnamə ilə təltif edilib. YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim olunub.








# "Müstəqil Azərbaycanın memarı" adlı beynəlxalq elmi konfransda 110-dan çox məruzə dinlənilib

**Bakı Dövlət Universiteti (BDU), Yeni Azərbaycan Partiyası (YAP) və Ankara Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycanın memarı" adlı beynəlxalq elmi konfransın bölmə iclasları keçirilib.**

BDU-dan AZƏRTAC-a bildirilib ki, konfransın ikinci günü 3 bölmədə Azərbaycanın tanınmış ictimai-siyasi xadimləri, alimləri tərəfindən Ulu Öndər Heydər Əliyevin dövlətçilik tariximizdəki xidmətlərinə, zəngin və çoxşaxəli fəaliyyətinə dair 110-dan artıq məruzə dinlənilib.

Qeyd olunub ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Ulu Öndər Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafeyini daim önə çəkib, respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə edib. Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayıb, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olub. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll edib. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib və məharətlə həyata keçirib. Ümummilli Liderin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilib və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilib.

Konfransda, həmçinin vurğulanıb ki, Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması dahi liderin mükəmməl quruculuq proqramının tərkib hissələri olub.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olub, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilib. Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirib. Konfrans öz işini yekunlaşdırıb.

# Tərtərdə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda konfrans keçirilib

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Respublika Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən Ümummilli Liderin anadan olmasının 100 illiyi və 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsinə dair Tərtər rayon İcra Hakimiyyətinin Tədbirlər Planına əsasən rayonda silsilə tədbirlər davam edir. Tərtər rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon icra hakimiyyətində Milli Məclisin deputatlarının iştirakı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilib.






Konfransda Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatları Rasim Musabəyov, Musa Qasımlı, Elman Nəsirov, Sahib Alıyev, hüquq mühafizə orqanlarının rəhbərləri, YAP Tərtər rayon təşkilatının sədri, qazilər, idarə, müəssisə və təşkilat rəhbərləri, İƏD üzrə nümayəndələr, təhsil, səhiyyə, mədəniyyət işçiləri də iştirak ediblər. Konfrans iştirakçıları öncə Ümummilli Liderin abidəsini və şəhidlər abidə kompleksini ziyarət edib, xatirələrinə ehtiram əlaməti olaraq abidələrin önünə gül dəstələri düzüblər. Deputatlar Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla birlikdə Ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibəti ilə Şıxarx qəsəbəsində ermənilərin özləri tərəfindən ucaldılmış "Marağa 150" abidəsinin qalıqlarına baxıblar. Şəhidlərin xatirəsinə salınmış "Vətən bağı"nda ağac əkiblər. Sonra rayonun infrastrukturu ilə tanış olublar. Rayon rəhbəri onları 44 günlük Vətən müharibəsində rayonun mülkü müdafiə qərargahının yerləşdiyi zirzəmi ilə tanış edib və onlara müharibə dövründə rayona dəymiş ziyanla bağlı məlumat verib.

Qeyd edib ki, 44 günlük Vətən Müharibəsində Tərtər şəhərinə və yaşayış məntəqələrinə 16277 top, tank, qrad mərmisi düşmüş, 21 qadağan olunmuş raket atılıb. Bunun nəticəsində rayonun infrastrukturuna güclü ziyan dəyib, 12 körpələr evi-uşaq bağçasına, 16 ümumtəhsil müəssisəsinə, 10 tibb müəssisəsinə, 7 mədəniyyət müəssisəsinə, məscid və inzibati binalara, 83 çoxmərtəbəli yaşayış və 5344 fərdi yaşayış evlərinə, 95 nəqliyyat vasitəsinə, 18 kənd təsərrüfatı texnikasına ziyan dəyib. Rayon ərazisində müharibədən ziyan çəkmiş yaşayış və qeyri yaşayış sahələrinə işçi qrupu tərəfindən 7050 baxış keçirilib. Dövlət rəsmilərinin dediyi kimi "Tərtər Ermənistanın nasizminə qarşı Azərbaycanın Stalinqradı" olub. Sonra konfrans iştirakçıları 44 günlük Vətən Müharibəsində ermənilərin atdığı "Smerç" tipli raket nəticəsində şəhərin Elman Səfərov küçəsinin sakini Sahib İsmayılovun dağılmış evinin yerində yaradılmış ev muzeyində olublar, rayon rəhbəri onlara erməni vəhşiliyinin sübutu kimi rayonda mülkü insanlara qarşı törədilən terror aktları barədə məlumat verib. Rayon Mədəniyyət Mərkəzi tərəfindən Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə təşkil edilmiş kitab sərgisinə baxdıqdan sonra konfrans öz işinə başlayıb.

Öncə Ulu Öndərin və torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Sonra rayon icra hakimiyyətinin Mədəniyyət Mərkəzi ilə birgə Ümummilli Liderin 100 illik yubileyi münasibəti ilə hazırladıqları "Ulu Öndər tərtərlilərin yaddaşında" filminin təqdimatı olub. Ulu Öndərə həsr olunmuş film izlənildikdən sonra Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov qonaqları salamlayaraq, "Qəhrəman Tərtərə xoş gəlmisiniz,"- deyib. Rayon rəhbəri Ümummilli Liderin 100 illik yubileyi ilə bağlı rayonda keçirilən silsilə tədbirlər barədə məlumat verib. Bildirib ki, müstəqil Azərbaycanın qurucusu olan Ümummilli Lider hakimiyyəti dövründə ölkəmizdə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik işlər görüb. O, Azərbaycan xalqının və dövlətinin xilaskarıdır.

Natiq qeyd edib ki, Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə bütün regionlar kimi, Qarabağın dilbər guşələrindən olan Tərtər rayonuna da böyük diqqət və qayğı göstərib. Ümummilli Lider deyirdi: "Tərtər Azərbaycanın gözəl təbiəti, bərəkətli torpağı, zəngin keçmişi olan və əməksevər insanların yaşadığı bir diyardır. "Ulu Öndərin 1969-cu ildə ilk dəfə hakimiyyətə gəlişindən sonra rayonumuzun ictimai-siyasi və iqtisadi həyatında böyük dəyişikliklər olub. Həmin illərdə Tərtər 35-40 min ton pambıq verən, böyük maldarlığa malik olan, sənayesini dirçəldən bir rayona çevrilib. Tərtər şəhərində çoxmərtəbəli evlərdən ibarət bir qəsəbə salınıb, 30-40 mənzilli evlərdən ibarət 8 beşmərtəbəli yaşayış binası tikilib, əhalinin mənzilə olan tələbatını ödəmək üçün 2300 nəfərə həyətyanı torpaq sahəsi verilib. Qeyd edilib ki, Ulu Öndərin diqqət və qayğısı ilə Tərtər rayonu inkişaf edib, gözəlləşib.

Sonra Milli Məclisin deputatları politoloq Rasim Musabəyov "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti", "Şöhrət" ordenli Musa Qasımlı "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü", Elman Nəsirov "Heydər Əliyevin energetika siyasəti" və politoloq Sahib Alıyev "Heydər Əliyev və Türk dünyası" mövzularında çıxış ediblər. Çıxışlarda Azərbaycanın çağdaş tarixinin milli intibah dövrü müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğu vurğulanıb.

Qeyd olunub ki, məhz Ulu Öndər Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxarmış, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir. Dahi rəhbər dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, siyasi məktəb miras qoymuşdur. Çıxışlarda o da vurğulanıb ki, Müzəffər Ali Baş Komandan, ata vəsiyyətini ləyaqətlə yerinə yetirən Möhtərəm Prezidentimiz cənab İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə müstəqil Azərbaycanı dinamik inkişaf yoluna çıxarmış, dünya miqyasında sabit iqtisadiyyata və mühüm geostrateji mövqeyə malik olan, qlobal enerji təhlükəsizliyinin təminatında vacib rol oynayan, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkana çevirmişdir.

*Rəfiqə*

# Heydər Əliyev-100

Məlum olduğu kimi, bu il Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Dövrünün ən nüfuzlu siyasətçisi olan Heydər Əliyev Azərbaycanın dünyada tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanması istiqamətində məqsədyönlü iş aparmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həll olunması məqsədi ilə bütün qüvvələri səfərbər etmiş və tarixi ədalətin bərpa olunması üçün əzmkarlıq





*Məhərrəm Əliyev,*
*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik*

## Müstəqil Azərbaycanın qurucusu və memarı - ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

göstərmişdir. Ulu Öndərin memarı olduğu güclü Azərbaycan dövləti müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanmaqla öz müstəqilliyini qorumağa müvəffəq olduğunu bütün dünyaya sübut etdi.

Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir. Müstəqilliyimizi və Ulu Öndərin miras qoyduğu zəngin irsi göz bəbəyi kimi qorumaq hər birimizin ən ümdə vəzifəsidir. Dünya Azərbaycanlıları Ümummilli Liderin əziz xatirəsini daim uca tutur və minnətdarlıqla yad edir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməyim, eləcə də onunla şəxsi tanışlığım mənim üçün böyük şərəf və qürurdur. 10 May - Ümummilli Liderin doğum günü ərəfəsində fürsətdən istifadə edərək daim xatirələrimdə yaşayan ən mühüm məqamları bölüşmək istərdim. Hər bir xalqın, dövlətin inkişafında dahi şəxsiyyətlərin, siyasi liderlərin rolu danılmazdır. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun taleyində əsaslı dönüş yaradan, müstəqilliyi itirmək təhlükəsindən xilas edən, dövlətçiliyi əbədi və dönməz edən Heydər Əliyev kimi dahi rəhbəri olub. "Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm" deyən dahi şəxsiyyət qüsursuz, aydın və dolğun çıxışları ilə həm də ustad bir müəllim idi. Hələ Moskvada xüsusi orta milis məktəbində təhsil aldığım illərdə Heydər Əliyevin çıxışlarını izləyir, hətta imtahan verərkən onun fikirlərindən sitatlar gətirirdim. Yaxşı yadımdadır ki, elə o dövrdə də bütün SSRİ-də Heydər Əliyev şəxsiyyətinə böyük maraq vardı. Hər kəs onun iti zəkasına, idarəçilik məharətnə həsəd aparır, barəsində çox müsbət fikirlər səslənirdi. O illərdə bütün azərbaycanlı gənclərin əksəriyyəti kimi mənim də Heydər Əliyevə xüsusi rəğbətim vardı. Sonrakı illərdə mənə Ümummilli Liderlə şəxsən tanış olmaq və onun müdük rəhbərliyi altında çalışmaq imkanı nəsib oldu.

Sovet rəhbərliyi tərəfindən 1990-cı ilin yanvarında Bakıda xalqımıza qarşı faciə törədildiyi ən ağır vaxtda Heydər Əliyev həyatını böyük təhlükə altına qoyub Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Ulu Öndər SSRİ və respublika rəhbərliyinin hüquqazidd əməllərini ifşa etmişdi. Tarixin məsuliyyətli və çətin dövründə xalqı ilə olmağı, onun haqq səsini dünyaya çatdırmağı vacib bilən Ümummilli Lider həmin ilin iyulunda Bakıya qayıtdı. Azərbaycan tarixinin və dövlətçiliyimizin ağır günlərində, həyatı boyu qəlbi Vətən və xalq ilə döyünən dahi şəxsiyyət bir daha əsl vətənpərvər kimi qətiyyət göstərdi. Həmin o günlərin və görüşlərin iştirakçısı kimi Ulu Öndərimizlə ilk tanışlığımız yarandı. Məlum olduğu kimi, həmin dövrdə ölkədə vəziyyət olduqca ziddiyyətli və gərgin idi. Müəyyən siyasi qüvvələr vəziyyətdən sui-istifadə edirdi və demək olar ki, proseslər idarə olunmaz hala çatmışdı. Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı barışmaz mövqedə dayanan Ulu Öndər kritik dönəmdə xalqın yanında olmağa qərar verdi və özünün həyat fəlsəfəsini belə izah edirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

O zaman Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi və siyasi böhranın dərinləşdiyi Naxçıvanda təxribatlar baş alıb gedirdi. Sərhədyanı kəndlər ermənilərin mütəmadi hücumlarına məruz qalır və qərət olunurdu. Belə bir çətin durumda xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Bakıdan blokada şəraitində olan Naxçıvana getdi və yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi. Ulu Öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün mühüm qərarlar qəbul etdi. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında region dövlətləri ilə əlaqələr yaratması və xalqı öz ətrafında birləşdirərək erməni təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi mürəkkəb hərbi-siyasi şəraitdə Naxçıvanı işğaldan qorudu. Həmin günləri mən çox yaxşı xatırlayıram. Mən o illərdə dəfələrlə Bakıdan Naxçıvana Ulu Öndərin yanına gedir, ölkədə gedən siyasi proseslər barədə fikir mübadiləsi aparır və dəyərli məsləhətlər alırdım. Mən çox xoşbəxt insanam ki, Ümummilli Liderin rəhbərliyi altında uzun illər məsul vəzifədə çalışmışam və bu gün də onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında çalışıram.

XX əsrin sonlarında yenidən müstəqillik qazanan dövlətimiz qısa müddətdən sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. 1993-cü ilin iyununda ölkədə hakimiyyət böhranı kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə çatdırılmış qarşıdurma dövlət müstəqilliyimizi itirmək təhlükəsi yaratdı. Həmin dövrdə hüquq-mühafizə orqanlarında çalışdığımdan hadisələrin yaxından iştirakçısı kimi deyə bilərəm ki, bütün bunlar liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək bacarığından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin ölkəyə rəhbərlik etməsinə görə baş verirdi. Prosesləri düzgün qiymətləndirə və lazımi məcraya yönəldə bilməyən hakimiyyət əhali arasında gündən-günə nüfuzunu itirirdi.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının işğalı, gərginləşən siyasi vəziyyət, əhalinin acınacaqlı sosial durumu ölkəmizi bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir olan Liderə və Şəxsiyyətə ehtiyac olduğunu zəruri edirdi. Azərbaycan xalqı əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Beləliklə, 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyev xalqın təkidli çağırışlarına səs verərək Bakıya qayıtdı. Həmin tarixi anların iştirakçısı kimi deyə bilərəm ki, bu qayıdış sözün əsl mənasında, ölkəmizin taleyində dönüş nöqtəsi oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Tarixə nəzər salsaq görərik ki, xalqların tarixində elə günlər vardır ki, həmin günlərdə onun gələcəyini müəyyən edən təməllərin əsası qoyulub. Bu tarix isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və inkişafında müstəsna rol oynayan Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider ölkədə vətəndaş həmrəyliyi və sabitliyin bərqərar olunmasına nail oldu. Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu, respublikada ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Burada bir məqamı xüsusi ilə vurğulamaq istərdim. Unutmamalıyıq ki, bütün bunlar asanlıqla başa gəlməmişdir. Ölkədəki hərcmərcliyin və anarxiyanın qarşısını almaq böyük cəsarət və gərgin iş tələb edirdi. Müstəqillikdən sonra ölkəyə rəhbərlik etmiş şəxslər öz yarıtmaz əməlləri ilə bütün sahələrdə ciddi problemlər yaratmış, ölkəni dağılmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Əhali arasında sosial narazılıqlar son həddə çatmışdı. Uzun illər ərzində cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə çalışdığıma görə, vəziyyətə yaxından bələd olduğum üçün deyə bilərəm ki, ölkədə kriminogen vəziyyət nəzarətdən çıxmış, cinayət əməlləri baş alıb gedirdi. Dövlətinə və xalqına bağlı olan milli kadrların bir çoxu mənim kimi siyasi əqidəsinə görə təqiblərə məruz qalmış və həmin illərdə hüquq-mühafizə orqanlarından xaric olunmuşdular. Ölkədə siyasi sabitliyin bərpa olunması, vətəndaş həmrəyliyinin formalaşdırılması, ordu quruculuğu, cinayətkarlıqla mübarizə və sair bu kimi həyati vacib sahələrə peşəkar və sadiq kadrların cəlb olunması və islahatların aparılması böyük çətinliklər yaradırdı.

Lakin, bütün bunlara baxmayaraq, Ulu Öndərin fədakar zəhməti hesabına ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu və Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. Xalqın əbədi sevgisini qazanan Ulu Öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Ümummilli Liderin şəxsiyyəti, onun siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində və beynəlxalq aləmdə xalqımızın strateji mənafelərinin təmin olunmasında həlledici rol oynadı. Siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi üçün neft sektoruna xarici sərmayələrin cəlb edilməsi məqsədi ilə "Əsrin müqaviləsi" imzalandı. Nəticədə ölkə iqtisadiyyatına külli miqdarda investisiya yatırılması ilə yanaşı ən müasir innovasiya və informasiya texnologiyalarını gətirilməsi, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, habelə nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənməsi təmin olundu.

Ulu Öndər diplomatik vasitələrlə 1994-cü ilin may ayında cəbhədə atəşkəsə nail oldu və Milli Ordunun formalaşması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan Silahlı Qüvvələrin yaradılması və torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atdı. Bütün gücünü və diqqətini ordu quruculuğuna yönəldən Ulu Öndər əminliklə bildirirdi ki, işğal altında qalan torpaqlarımız gec-tez düşməndən azad olunacaq və bu Heydər Əliyevin ən böyük arzusu idi.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Heydər Əliyevin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində inamlı islahatlar apardı. 44 günlük Vətən müharibəsində mükəmməl əks-hücum əməliyyatları ilə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Silahlı Qüvvələri öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Cənab Ali Baş Komandan İlham Əliyevin Şuşanın azad olunması ilə bağlı xalqa müraciətində ata vəsiyyətini yerinə yetirdiyinə görə xoşbəxt olduğunu dilə gətirdi.

Müasir Azərbaycan dövlətinin əbədiyaşar memarı Heydər Əliyev ideyalarının sadiq davamçısı cənab İlham Əliyev tərəfindən ordu quruculuğu sahəsində qoyulan tapşırıqlar bu gün uğurla həyata keçirilir və Ordumuz Ali Baş Komandanımızın əmr və tapşırıqlarını yerinə yetirmək üçün hər an hazır vəziyyətdədir.







## Azərbaycanın növbəti uğurlu addımı Ermənistanı

# SİLKƏLƏDİ!

**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, ”Qızılbulaq” və ”Dəmirli” yataqlarında monitorinqlərin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası artıq 136 gündür ki, davam edir. Aksiyaçılar sivil qaydalar çərçivəsində yüksək əzmkarlıq nümayiş etdirirlər.**

Etirazçıların toplaşdığı ərazidən keçən yolda sərbəst hərəkətə heç bir maneə yoxdur. Yol humanitar məqsədlər üçün tam açıqdır. Rusiya sülhməramlılarına məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkətinə və digər humanitar məqsədlərə şərait yaradılır. Həmçinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin də aksiya ərazisindən keçidi təmin olunub.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov Onu da vurğulamaq lazımdır ki, etirazlar heç bir siyasi məqsədə xidmət etmir. Yalnız ekoloji fəsadların aradan qaldırılması, ”Qızılbulaq” və ”Dəmirli” yataqlarına ekoloqların daxil olub monitorinqlərin həyata keçirilməsi kimi tələblər səsləndirilir. İlk növbədə, Laçın yolu vasitəsilə qeyri-humanitar məqsədlərə xidmət edən fəaliyyətin dayandırılması Azərbaycanın ərazi bütövlüyünə hörmət və eyni zamanda, separatçı meyillərin qarşısının alınması üçün atılan ciddi addımdır.

Eyni zamanda, Laçın yolu vasitəsilə diversantlar, ərazi pozucularının minalar, silah-sursat və ağır texnika daşımalarının üçtərəfli Bəyanata, beynəlxalq hüquq və müqavilələrə zidd olduğundan və bunun yolverilməzdir. Belə ki, Üçtərəfli Bəyanatın 4-cü maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin qalıqları bölgəni tərk etməli və Rusiya sülhməramlıları bölgəyə yerləşdirilməli idi. Sülhməramlılar bölgəyə yerləşdirilsə də, erməni silahlıları hələ də ərazilərimizdədir və separatçı fəaliyyətlə məşğul olurlar. Ərazilərimizdə Ermənistanın 2021-ci il istehsalı olan minalara rast gəlinməsi bunun sübutudur. Məqsəd aydındır, niyyətləri Azərbaycanın infrastrukturuna, mülki şəxslərimizə və hərbçilərimizə ziyan vurmaq, xəsarət yetirməkdir. Buna görə də Azərbaycan öz təhlükəsizliyini müdafiə etməlidir.

Və bu məqsədlə .



### AZƏRBAYCAN ERMƏNİSTANA ÇAĞIRIŞ ETDİ

”Ermənistanı beynəlxalq birliyi özünün qarayaxma kampaniyasına alət etmək, o cümlədən bu məqsədlə Beynəlxalq Ədalət Məhkəməsinin məlum qərarını təhrif etmək cəhdlərinə son qoymağa çağırırıq”. Bu, Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan XİN-in Azərbaycan tərəfinin Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis etməsi ilə əlaqədar 23 aprel tarixli bəyanatına dair şərhində yer alıb. Şərhdə qeyd olunub ki, Azərbaycan tərəfindən öz suveren ərazisində sərhəddə nəzarət-buraxılış məntəqəsinin təsis edilməsi barədə legitim qərarı və addımı bütün beynəlxalq hüquq prinsiplərinə və normalara uyğundur: ”Bu məntəqənin təsis edilməsi 2020-ci il 44 günlük Vətən müharibəsindən sonra Ermənistan tərəfinin üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycana qarşı hərbi təxribatları dayandırmaması, yoldan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə edildiyi, hərbçilərinin rotasiyasının həyata keçirməsi vəziyyətində qəbul edilmiş legitim və milli təhlükəsizlik qərarıdır. Eyni zamanda, aprelin 22-də Ermənistana məxsus yük avtomobilləri ilə iki ədəd hərbi məqsədlər üçün yaşayış konteynerlərinin və hərbi avtomobillər konvoyunun Azərbaycan ərazisinə keçirilməsi və Ermənistan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycan ərazisinə ən yaxın məntəqədə hərbi infrastruktur qurmaq fəaliyyəti bu qərarın sürətləndirməsini şərtləndirən amillərdən olub”.

### PREZİDENT İLHAM ƏLİYEVİN MÜDRİK HƏRBİ SİYASƏTİNİN NÖVBƏTİ UĞURU

Bəli, Laçın dəhlizində Nəzarət Buraxılış Məntəqəsinin qurulması çoxdan gözlənilən bir addım idi və bu da oldu. Lakin həmişə olduğu kimi, müqavimət göstərənlər çox olsa da sözü imzası qədər dəyərli və keçərli olan Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin nəyi, nə vaxt necə edəcəyini bilən Qalib Lider səbrlə hədəfə doğru getdi. Nəticədə, tarixi hadisə olan Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycanın sərhəd-buraxılış məntəqəsinin qurulması çox böyük beynəlxalq uğurdur. Bu hadisə tarixi hadisə olaraq Azərbaycan Prezidenti İlham Əliyevin çox peşəkar, qətiyyətli və soyuqqanlı xarici və hərbi siyasətinin mühüm uğurudur.

**Bu, Prezident İlham Əliyevin xarici və hərbi siyasətinin mühüm uğurudur**

Və həmçinin, hər şeydən öncə deməliyyik ki, Azərbaycan öz ərazisində istənilən qərarı qəbul etmək, istənilən hərəkəti həyata keçirmək haqqına malikdir. Bunun üçün kiminsə razılığına ehtiyac yoxdur. Başqa tərəfdən, ermənilər 10 noyabr Bəyannaməsinə istnad edirlər. Biz də həmin sənədə müraciət edək: sənədin 6-cı maddəsində göstərilir ki , Azərbaycan Laçın dəhlizi ilə vətəndaşların, nəqliyyat vasitələrinin, yüklərin hərəkətinin təhlükəsizliyini təmin edir. Bu gün Laçın dəhlizi ilə silah-sursat, terrorçu daşınırsa, orada və ətraf ərazilərdə mina basdırılır, insanlar bu minaların partlamasından həyatını itirir, yaralanırsa, deməli, Azərbaycan həmin razılaşmadan irəli gələn öhdəliyini yerinə yetirməli, təhlükəsizliyin təmin olunması üçün tədbirlər görməlidir. Məntəqənin yaradlması bu tədbirlərdən biridir. Azərbaycan 10 noyabr razılaşmasına uyğun olaraq, bu məntəqəni quraşdırıb.

### ERMƏNİSTAN İSƏ ƏSASSIZ CƏHDLƏRİ İLƏ DƏRİN BÖHRANA DÜŞÜR

Bəli, ”yalan ayaq tutar, yeriməz”, ancaq bəzən yalan nəinki yeriyir, hətta yüyürə də bilir. Bu gün Ermənistanın təbliğat maşını Laçın koridoru bağlı olduğunu deyir. Humanitar böhranın meydana çıxmanda blokadadan danışılır. Həqiqətəuyğun məlumatlar Ermənistanın uğursuz siyasəğtidtr. Və bu günə kimi də Laçın dəhlizində gediş-gəliş heç bir mənеə olmadan baş verir. Məkrli məqsədlərlə Azərbaycana qarşı ittihamlar irəli sürən yəqin ki, Ermənistan düşünür ki, Laçın dəhlizində heç bir nəzarət olmasın, istənilən kriminal elementlər də buradan maneəsiz keçə bilsin. Ancaq bu bir faktordur ki, dünyanın heç bir ölkəsi, əlbəttə ki, heç kəsə öz sərhədini nəzarətsiz keçməyə icazə verməz. Onu da qeyd edək ki, 30 ildir Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı tam blokada vəziyyətində saxlayır. Azərbaycan dəfələrlə Ermənistanın Zəngəzur dəhlizinin açması məsələsini qaldırıb. Lakin Ermənistan bununla razılaşmır.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında da birmənalı şəkildə bəyan edir ki, Ermənistan Azərbaycanın təklif etdiyi, beynəlxalq hüququn fundamental prinsiplərinə əsaslanan sülh sazişini imzalamaq çağırışına cavab vermir. Ermənistan Azərbaycan və Gürcüstanla üçtərəfli əməkdaşlığa dair təklifi də qəbul etmək istəmir. Azərbaycan 3 Qafqaz ölkəsinin enerji, nəqliyyat, təhlükəsizlik, sabitlik, sərhədlərin delimitasiyası sahəsində səyləri birləşdirməyə dəvət edir. Gürcüstan buna məmnuniyyətlə razılıq verir, lakin Ermənistan isə ”yox” deyir. Belə qeyri-konstruktiv mövqe və əsassız cəhdi Ermənistanı daha dərin böhrana sürükləyir.

Və xəbis niyyətlilərin diqqətinə isə Prezident İlham Əliyevin martın 28-də Laçın rayonuna xüsusi nümayəndəsinin təyinatı ilə bağlı martın keçirdiyi qəbul zamanı söylədiyi bu fikirləri çatdırmaqla hələ də inanmaq istərdik ki, onlar, nəhayət xam xəyallarından ayılıb real həyata dönəcək, Azərbaycanın milli maraqlarının ziddinə olan fəaliyyətdən imtina edəcəklər: ”Eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü. Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz”.

Bəli, haqq yolunda addımlayanın köməyi çox, düşməni yox olar! Və İkinci Vətən Müharibəsində Qalib Prezidentimiz, Ali Baş Komandanın ”Dəmir Yumruq” siyasəti 30 il işğalda olan torpaqlarımız azad olundu və bir daha beynəlxalq təşkilatlar Ermənistanın işğalçı və terrorçu olduğunu təsdiqlədilər. Eyni zamanda, dünya birliyi, nəhayət ki, Ermənistanın beynəlxalq səviyyədə götürdüyü öhdəlikləri kobud şəkildə pozmaqda davam etdiyinin, sülh, atəşkəslə bağlı çağırışlara məhəl qoymadığının şahidi olur. Şahidi olurlar ki, işğalçı dövlətinin ordusunun sərhədboyu ərazilərdə ağılasığmaz qəddarlıqlar nəticəsində minlərlə dinc azərbaycanlı həlak olub, kəndlər, qəsəbələr, taixi-mədəni abidələr viran edilib.

Bəli, bu gün dövlət başçımız yüksək tribunalardan, müsahibələrində, ictimaiyyətlə görüşlərində dəfələrlə bildirir ki, separatçılara, revanşistlərə, qanunsuz hərbi birləşmələrə və terrorçulara Azərbaycan ərazilərində yer yoxdur: ”Azərbaycan Bayrağını və suverenliyini qəbul edən ermənilər burada qalıb yaşaya bilərlər. Separatizmə meyilli olan şəxslər isə özləri üçün başqa yer tapıb yaşamaq barədə qərar qəbul etməlidirlər!”.

Bir sözlə, Biz Prezident İlham Əliyevin ”Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” fikrinin dəfələrlə təsdiqini məhz belə əməli addımlarda görürük. Azərbaycan Prezidenti indi bu prosesi artıq praktiki şəkildə həyata keçirdi. Bütün bu addımların nəticəsi kimi, artıq delimitasiya və demarkasiya məsələlərinin həlli, sülh müqaviləsinin imzalanması və Azərbaycan tərəfindən üçtərəfli Bəyanatın bütün tələblərinin yerinə yetirilməsi təmin olunacaq. Çünki dövlətimizin başçısı nəyi, necə və nə zaman etməyi çox yaxşı bilir.

***RƏFİQƏ KAMALQIZI***





# Bütün yollar Həkəri çayı üzərində birləşir

Mövcud fakt və reallıq ondan ibarətdir ki, zaman-zaman ikili standartların hökm sürdüyü dünyamızda Azərbaycan xalqının haqq işinə qarşı ayrı-seçkiliyə yol verilib. Bu ikibaşlı və ziddiyyətli siyasi məzhəkələr tarixən mövcud olub və bu gün də davam etməkdədir. İkili siyasət yürüdən dünya gücləri azərbaycanlılar Qərbi Azərbaycandan didərgin salınanda susmağa üstünlük verdilər. Sonrakı mərhələdə bu ənənə erməni daşnak qüvvələrinin Azərbaycanın 20 faiz torpaqlarını işğal etdiyi zaman davam etdi. 30 il susmağa və erməni terrorçu hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılmasına səy göstərmədilər. Əksinə, beynəlxalq təşkilatlarda Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı məsələ müzakirə edilən zaman erməni bacılarının, qardaşlarını maraqlarından çıxış etdilər. Elə ki, 2020-ci il 27 sentyabrından Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımızı azad etdi, dünya bicləri və gücləri dillənməyə başladılar. Hətta Azərbaycanın hərbi uğurlarından narahat olduqlarından hay-küy də qaldırdılar. Ancaq Azərbaycan haqq yolunda olduğu üçün öz məqsəd və hədəfindən yayınmadı, təbii ki, suverenliyimiz bərpa olunana qədər ordu və xalq Ali Baş Komandanın yanında ayaqda olacaq. Artıq Azərbaycan elə bir gücə və qüdrətə malik dövlətdir ki, onun qarşısında heç bir qüvvə dayana bilməz. 1918-ci ildə yol verilmiş acı tarixi təcrübədən ibarət götürən xalqımız bilir ki, Vətən torpağından pay olmaz. Bu baxımdan, tarixi dərslərdən nəticə çıxaran xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməklə yağı düşməni məhv etməyə və işğal altında olmuş torpaqlarımızı azad etməyə nail oldu.

### İndiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub

Ermənilərin Qafqazda məskunlaşmasına Rusiya və indiki fars molla rejimi daha çox canfəşanlıq göstərmişlər. 1928-ci ildə Çar Rusiyası Qafqazı zəbt etdikdən sonra İrəvan xanlığı ərazisində qondarma "Ermənistan" vilayəti yaratmış, bu ərazilərdə ermənilərin sayını çoxaltmış, azərbaycanlıları isə tədricən təzyiqlərə məruz qoymuşdur. Aparılan təmizləmə siyasəti nəticəsində on minlərlə azərbaycanlı qətlə yetirilmiş, yüz minlərlə insan isə ev-eşiyini tərk etmək məcburiyyətində qalmışlar. Bu gün Qərbi Azərbaycanı zəbt edib, özlərinə qondarma dövlət yaradan haylar utanıb-çəkinmədən iddia edirlər ki, bu ərazilərdə azərbaycanlılar azsaylı olublar. Hətta yer adlarını da dəyişməklə saxtakarlıq nümayiş etdirməkdən də çəkinmirlər. Təkcə 1938-1948-ci illərdə Zəngibasar rayonunda 25 azərbaycanlı kəndi var idi. Bu kəndlərdə ancaq kolxoz sədrləri, məktəb direktorları azərbaycanlılar idi. Zəngibasar rayonu ərazisindəki Zəhmət (Haçaparaq) kəndi Zəngi çayının sağ tərəfində İrəvan şəhərinin 6 km-də qonşu Arabat, Qaraqışlaq və Dəmirçi kəndlərinin yaxınlığında yerləşirdi. Zəhmət kəndinin toponimləri: Arxatlı, Qızlar, Qəmbəralı, Qocabağır, Qoşarx, Dəyirman arxı, Zeynəb yeri, Zəngiqırağı, Mehdixan, Xəbər yeri, Cəfər yolu. Kəndin adı 1935-ci ilə kimi Haçaparaq olmuş, həmin il dəyişdirilərək, Zəhmət adlandırılmışdır. Rəvayətlərdən birində kəndin adının "Haca aparmaq" ifadəsindən götürüldüyü məlum olur. Keçmişdə Həcc ziyarətinə gedən zəvvarlar buradan yola düşürmüşlər.





1930-cu ildə kənddə kolxoz qurulmuş və 1937-ci ildə milyonçu təsərrüfata çevrilmişdir. 1937-ci ildə kənddə zəlzələ olmuş və bir müddətdən sonra II Dünya müharibəsi başlamışdır. 1940-cı illərdə indiki Ermənistan adlanan ərazidə 400-dən çox Azərbaycan kəndi var idi. XIX əsrin 80-ci illərində ilk qəza məktəblərindən olan Zəngibasar rayonunun Uluxanlı kəndində böyük ədib Cəlil Məmmədquluzadə müəllim işləmişdir. 1988-ci ilin sentyabr ayına qədər Masisin (Zəngibasarın) bir neçə kəndinin azərbaycanlı kəndinin əhalisi zorla köçürüldü, məktəblər bağlanılır, hər şeyə son qoyuldu.1988-ci il hadisələri zamanı erməni daşnaklarının başçılığı altında Zəhmət kəndinə də silahlı basqınlar edildi, kənd əhalisi öz əzəli torpağından zorla çıxarıldı. Erməni daşnaklarının soyqırımı dövründə Zəngibasar rayonunun azərbaycanlı kəndlərində yüzlərlə insan öldürüldü və bir çoxu şikəst oldu. Erməni vəhşiliyinin azərbaycanlılara qarşı törətdikləri bu soyqırımı heç bir yerdə deyilmədi və bildirilməsi. Bu hadisələr o zamankı Azərbaycan rəhbərliyinin laqeydliyi və vəzifə hərisliyi nəticəsində baş verdi. Məhz səriştəsizlik və bacarıqsızlığın acı nəticəsini Ulu Öndərimizin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 günlük Vətən müharibəsi ilə aradan qaldırdı. Artıq Qarabağ iqtisadi zonasının əksər ərazilərində məskunlaşma həyata keçirilir, keçmiş qaçqın və köçkünlər öz yurd yuvalarına qayıdırlar. Bu günlər isə daha bir şad xəbər verildi. Azərbaycan Respublikasının

Dövlət Sərhəd Xidməti Xankəndi- Laçın yolunun başlanğıcında, Ermənistanla sərhəddə sərhəd - keçid məntəqəsi qurub. Bu barədə Dövlət Sərhəd Xidmətindən yaydığı məlumatda deyilir: 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.

Məlumatda o fikir də vurğulanıb ki, sərhəd - keçid məntəqəsinin qurulması ilə bağlı Rusiya sülhməramlı kontingenti və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin komandanlıqlarına məlumat verilib.

### Bu yol bizi Naxçıvana, oradan isə Türkiyəyə və Avropanın bölgələrinə aparacaq

Artıq Həkəri çayının yaxınlığında Azərbaycan sərhəd-keçid məntəqəsi fəaliyyətə başlayıb.Təbii ki, Ermənistan öz sərhədində keçid məntəqəsi yaratdığı kimi, Azərbaycan da öz ərazisi olan Laçın yolunda nəzarət məntəqəsi qurmaq hüququna malikdir. Hansısa qüvvələr bununla bağlı hay-küy qaldırırsa, sadəcə, beynəlxalq hüquqa deyil, erməni maraqlarına xidmət etmiş olurlar. Sərhəd-keçid məntəqəsi qurulana qədər erməni separatçıları müxtəlif vasitə və yollarla Ermənistandan Xankəndinə silah sursat və digər qeyr-qanuni daşınmalar həyata keçirirdilər. Lakin məntəqənin qurulması ilə bütün qanunsuz hərəkətin və daşınmaların qarşısı alındı. Bu baxımdan demək olar ki, hazırkı məqamda Qarabağda bütün yollar Həkəri çayı üzərində birləşir. Bu yol bizi Naxçıvana, oradan isə Türkiyəyə və Avropanın bölgələrinə aparacaq. Politoloq Aydın Quliyev mətbuata verdiyi açıqlamasında bildirib ki, Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması 10 noyabr sənədinin tam icrasına doğru həlledici addımdır: "Ermənistanın yeni ideoloji təxribatlara başlayacağı istisna deyil və bu yolda ilk addımları atır. Ermənistan bu məntəqəni Xankəndi ermənilərinin daha sıx blokadaya salınması kimi qələmə verməyə çalışır və bu sayaq ideoloji təxribatların heç bir əsası yoxdur. Necə ki, Azərbaycan ekofəalların aksiyası ətrafında Ermənistanın "blokada hay-küylərini" beynəlxalq diplomatik-informasiya müstəvisində alt-üst etdi, sübut etdi ki, Laçın yolunda Azərbaycanın nəzarətinin qurulması dövlətimizin suveren hüquqlarının tələbidir, eynilə də sübut edəcəyik ki, nəzarət-buraxılış məntəqəsi ilə bağlı Ermənistanın bütün informasiya-ideoloji təxribatları iflasa məhkumdur. Azərbaycanın Laçın yolunda keçid məntəqəsi qurması erməni icması ilə İrəvanın əlaqəsinin kəsilməsi demək deyil və ola da bilməz. Baxmayaraq ki, Ermənistanda bu yönümdə də rəy yaratmağa uğursuz cəhdlər göstərilir".

Xankəndi-Laçın yolunun başlanığıcında, Həkəri çayı üzərində Azərbaycanın sərhəd-keçid məntəqəsi qurmasından sonra Qarabağdakı erməni separatçıları təşvişə düşüblər. Çünki onların Ermənistandan qaçmaq belə imkanları olmayacaq. Azərbaycan qanunvericiyinə əsasən, onlar sərhəd-keçid məntəqəsindən keçən zaman həbs ediləcək, ədalət mühakiməsi qarşısına çıxarılacaqlar. Siyasi şərhçi Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Qarabağdakı separatçılar mütləq cəzalarını alacaqlar: "Xankəndidəki separatçılara münasibət barədə Azərbaycan Prezidenti bu günlərdə açıq danışdı. Bəyan etdi ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul edəcəklər, ya da ölkəmizin ərazisini tərk edib gedəcəklər. Hələlik, görünən odur ki, ermənilərin "liderləri" bu reallığı qəbul etmək istəmirlər və müqavimət göstərməyə hazırlaşırlar. Ancaq bu cəhdlər əbəsdir. Heç kim Qarabağda Azərbaycanın suverenliyinin təmin olunmasının qarşısını ala bilməz. Nə qədər gec deyil, ermənilər ağıllarını başlarına yığmalı və Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Əks halda, özlərinə yeni yaşayış yeri axtarmaq məcburiyyətində qalacaqlar. Sadə ermənilər bir şeyi nəzərə almalıdırlar ki, onları müqavimətə çağıran Araik Arutyunyanın və ətrafındakı cinayətkar dəstənin kifayət qədər pulları, həm Ermənistanda, həm də digər yerlərdə evləri var. Onlar heç bir çətinlik çəkmədən bolluq içərisində yaşamağa davam edəcəklər. Bu cür avantürist "liderlərin" əməllərinin əziyyətini isə sadə ermənilər çəkəcəklər. Yeri gəlmişkən, sərhəddə nəzarət-buraxılış məntəqəsinin qurulması ermənilərin vətəndaşlıq barədə seçim etməsini sürətləndirəcək".

Bir sözlə görünən ondan ibarətdir ki, Azərbaycan dövləti separatizmin kökünü kəsmək və öz ərazi bütövlüyünü, suverenliyini bərpa etmək üçün qətiyyətli addımlar atmaqdadır. Günün birində əsgəri ordu birləşmələrimiz Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və digər rus sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında qalan torpaqlarımızda olacaq. Necə ki, gözlənilmədən Dövlət Sərhəd Xidmətinin qüvvələri Xankəndi-Laçın yolunun başlanğıcında sərhəd keçid- məntəqəsi qurdu. Qeyd etdiyimiz o günün biri də Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə üçrəngli bayrağımızın dalğalanması ilə olacaq.

**İ.ƏLİYEV**

# Turizm sahəsində GÖZLƏNİLƏN İNKİŞAF




Turizmin inkişafına bütün dünyada xüsusi diqqət yetirilir və bu heç də əbəs yerə, yaxud da təsadüfi deyil. Dünyanın bir çox inkişaf etmiş, qabaqcıl ölkələrində bu sahənin inkişaf etdiyini müşahidə edirik, çünki turizmin inkişafı ölkə büdcəsinə kifayət qədər vəsaitin daxil olması, məşğulluq səviyyəsinin artması, sosial rifahın daha da yaxşılaşması deməkdir. Bu baxımdan ölkəmizdə də turizm sahəsinə dövlətimizin diqqəti, qayğısı yüksək səviyyədədir və nəzərə alsaq ki, Azərbaycan coğrafi baxımdan məhz turizm üçün əlverişli mövqeyə malikdir, deməli, bu sahənin daha sürətlə inkişaf edəcəyinə ümid etməyə hər birimizin haqqı var.

Statistik göstəricilər təsdiq edir ki, ötən il Azərbaycanda turizmin bərpasında və inkişafında əhəmiyyətli dərəcədə irəliləyiş əldə olunub. Beləki, il ərzində ölkəmizi ziyarət edən qonaqların sayı 1 milyon 602 min nəfəri keçib və bu da əvvəlki dövrlə müqaisədə iki dəfə artım deməkdir. Deməli, ildən-ilə ölkəmizə gələn turistlərin sayı artmaqdadır və bu müsbət dinamika qarşıya qoyulan hədəflərə çatacağımızdan xəbər verir. Bir halda ki, ildən-ilə bu göstərici iki dəfə artır və ötən il əvvəlki dövrlə müqaisədə iki dəfə çox, yəni ölkəmizə gələn turistlərin sayı 1,6 milyon nəfərdən artıq olub, deməli, 2026-cı ilə qədər ölkəmizi ziyarət edəcək turistlərin sayının 4 milyon nəfərə çatdırmaq barədə qarşıya qoyulan hədəfimizə çatacağımıza zərrə qədər şübhə qalmır.

Faktiki olaraq pandemiyaya qədər ölkəmizə turist axını rekordu 3,7 milyon təşkil edib və bu o deməkdir ki, nəzərdə tutulan nəticə realdır və buna nail olmaq mümkündür. Bunun üçün ölkəmizdə bir sıra işlər görülür, planlar həyata keçirilir. Görülən işlər və planlar sayəsində nəzərdə tutulan göstərici əldə edilərsə, 2026-cı ildə ümumi turizm gəlirləri 2021-ci illə müqayisədə 4 dəfə artmış olacaq. Bu isə o deməkdir ki, ümumi turizm gəlirləri 11,2 milyard manata çata bilər və bu zaman həmin gəlirlərin 49 faizi, yaxud da manatla ifadə etmiş olsaq, 5,5 milyard manatı xarici turistlərin payına düşər. Bir halda ki, 2022-ci ildə ölkəmizə gələn xarici turistlərin sayı 1,602 milyon nəfər təşkil edib və bu ötən dövrün göstəricisindən iki dəfə çoxdur, deməli, Azərbaycanın turizm sektorunda canlanma müşahidə olunmaqdadır. Belə bir canlanma və inkişaf da öz növbəsində sözsüz ki, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Təbii ki, bütün bunlar nəzərə alınaraq, ölkəmizdə turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyə mexanizmlərinin gücləndirilməsi nəzərdə tutulur. Bu istiqamətdə də təxirəsalınmaz işlər görülür, planlar həyata keçirilir. Turizmin inkişafına mənfi təsir göstərən postpandemiya dövründən çıxmaq mərhələsində olan Azərbaycan məhz turizm sektorunda sürətli inkişaf mərhələsindədir desək yanılmarıq. Çünki məhz turizmin inkişaf etdirilməsi məqsədi ilə ölkədə əlverişli şərait yaradılıb, hətta milli turizm komplekslərinin rəqabət qabiliyyəti də artırılıbdır.

Sözsüz ki, pandemiya digər sahələrdə olduğu kimi turizmə də öz mənfi təsirlərini göstərmiş oldu. Əlbəttə ki, məhdudiyyətlərin olması ən çox da turizm sahəsinə mənfi təsirsiz ötüşə bilməzdi və ötüşmədi də. Hələ də bu məsələ ilə bağlı çətinliklər var, çünki xüsusi karantin rejimi ilə bağlı maneələr hələ tam aradan qaldırılmayıb. Əgər respublikanın quru sərhədlərinin bağlanması yenidən iyulun 1-dək uzadılıbsa, deməli, ölkəyə turist axının sürətlənməsində maneələr var. Doğrudur, bu heç də çıxış yolunun olmaması demək deyil. Əvvəla, ölkəmizin quru sərhədlərinin bağlı olduğu şəraitdə daxili turizmin inkişafına təkan verilib və daxili turizmin təşviqi, yerli əhalinin turizm imkanlarından istifadə etməsi üçün turizm agentlikləri və özəl sektor tərəfindən müvafiq tədbirlər görülməkdədir. Bu tədbirlər isə öz bəhrəsini çoxdandır ki, verir, amma hər bir halda müvafiq istiqamətdə məhdudiyyətlərin tamamilə aradan qaldırılması turizm sektorunun daha sürətli inkişafı və bu sahədə gəlirlərin artması deməkdir. Ümid edirik ki, respublikanın quru sərhədlərinin bağlanması ilə əlaqədar məhdudiyyətlər də tezliklə aradan qaldırılar və bu zaman sözügedən sahənin inkişafında daha böyük fərqi, əhəmiyyətli dərəcədə artımı müşahidə etmiş olarıq. Nəzərə alsaq ki, məhz 2019-cu ildə ölkəmizə səyahət edən turistlərin 58,7 faizi avtomobil, qismən də dəmir yolu nəqliyyatı ilə gəlib, deməli, pandemiya məhdudiyyətləri aradan qaldırıldıqdan və qonşu ölkələrlə turist mübadiləsi bərpa edildikdən sonra gələcəkdə yalnız transsərhəd avtobus, dəmir yolu və avtomobil nəqliyyatının ölkəyə giriş potensialını iki milyon xarici vətəndaş səviyyəsində qiymətləndirmək mümkündür. Buraya respublikamızın avtomobil nəqliyyatı ilə səyahət edən vətəndaşlarını da əlavə etsək, o zaman bu rəqəmləri daha da artıq proqnozlaşdırmaq olar.

Diqqətə çatdıraq ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin böyük turizm potensialı var. İşğaldan azad edilən ərazilərimizdə aparılan quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması yaxın gələcəkdə Qarabağın istirahət imkanlarından istifadə etmək üçün şərait deməkdir. Deməli, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafı, bu sahənin genişləşdirilməsi, yeni istiqamətlərin müəyyən edilməsi baxımından çox yüksək potensialın olduğu təkzib edilə bilməz. Xüsusən də, hal-hazırda Füzuli və Zəngilan beynəlxalq hava limanlarının fəaliyyət göstərməsi, bu ilin sonuna, ya da gələn ilin əvvəlinə qədər Laçında hava limanının gözlənilən açılışı regionda beynəlxalq turizmin inkişafına əsaslı zəmin yaradır. Bu isə məhz turizm sektoruna investisiyaların cəlb edilməsi üçün əlverişli şərait deməkdir. Məhz bu şərait nəzərə alınaraq, Azərbaycanın profil strukturları Avropa, Türkiyə, Çin, postsovet ölkələrində keçirilən ixtisaslaşmış turizm forumlarında investorların cəlb edilməsi istiqamətində işlərini olduqca gücləndiriblər. Nəzərə çatdırmaq yerinə düşərdi ki, bir çox yerli və xarici özəl şirkətlər bu sahənin inkişafında maraqlı olduqlarını da bildirirlər. Artıq işğaldan azad edilmiş ərazilərimizdə termal, dağ, qış, ovçuluq, kənd təsərrüfatı və "yaşıl" turizmə böyük maraq göz önündədir. Məhz dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində turizm sahəsində bəzi layihələrin reallaşdırıldığı da diqqətdən yayınan deyil. Məsələn, Şuşada mehmanxana kompleksinin yaradılması ilə geniş turizm infrastrukturu ərsəyə gəlib, Suqovuşanda, Hadrutda istirahət zonalarının yaradılmasına start verilib.

Türk dünyasının mədəniyyət paytaxtı elan edilən Şuşa şəhəri özü turizm üçün geniş potensiala malikdir. Cari ilin sonuna qədər müvafiq strukturun, eləcə də ilkin turizm potensialının formalaşdırılması başa çatacağı zaman bu mədəniyyət paytaxtı turizmin qəbulu üçün çox böyük töhvələr verəcək. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərimizin böyük turizm potensialının olması heç də sirr deyil, amma həmin ərazilərdə separatçılar tərəfindən minaların basdırılması bu məsələdə maneələr deməkdir. Bir halda ki, həmin ərazilər minalardan təmizlənir, deməli, bu ərazilərdə yol, enerji və kommunal infrastruktur formalaşacaq və formalaşdıqca da turizm potensialının inkişafı istiqamətində müvafiq işlərə başlanılacaq. Sözsüz ki, həmin işlərə başlanılması, eləcə də reallaşdırılması məşğulluq səviyyəsinə də öz müsbət təsirini göstərəcək. Hesablamalara görə, 2030-cu ilədək təkcə Qarabağ iqtisadi rayonunda turizm sektorunda 1,5-2 minə yaxın daimi iş yerinin yaradılması proqnozlaşdırılır ki, bu da həmin ərazilərə qayıdan əhalinin rifah halının daha da yaxşılaşdırılmasına öz müsbət təsirini göstərmiş olacaq.

Ümumiyyətlə, ölkəmizdə turizmin inkişafı üçün digər rayonlarımızın da kifayət qədər potensialı mövcuddur. Dağlıq rayonlarda istər yerli, istərsə də xarici turistlərin diqqətini cəlb edəcək kifayət qədər yerlər vardır ki, məhz turizm üçün əlverişli hesab olunur. Böyük Qafqazın ətəklərində ucsuz-bucaqsız meşələr, dağ çayları, şəlalələr, göllər və füsunkar təbiət mənzərələri hər zamankı kimi turistlərin marağına səbəb olur. Həmin ərazilərdə turizmin inkişafı üçün müvafiq işlərin görülməsi öz müsbət nəticələrini vermədədir və hələ bundan sonra daha böyük nəticələrə də ümid etməyə dəyər. Azərbaycan istər təbiəti, istər sərvətləri, istərsə də maddi-mədəni irsi ilə turistlərin diqqətini hər zaman cəlb edib. Tarix boyu ölkəmizin ərazisinə xarici turistlərin maraq göstərdiyi hər kəsə bəllidir. Nəzərə alsaq ki, Azərbaycan öz maddi-mədəni irsi, özünəməxsus füsunkarlığı ilə dünyanın diqqət mərkəzindədir, deməli, belə bir marağın indi daha da artdığını cəsarətlə söyləyə bilərik. Bütün sadalananlar onu deməyə əsas verir ki, turizm sahəsində gözlənilən inkişaf heç də uzaqda deyil.

***İnam Hacıyev***



# Qırmızı ölüm

**MƏTANƏT**

***Ölümün bu növünün harada, necə, nə formada olduğu barədə baş sındırıb düşünməyə dəyməz. Çünki heç də uzaqda deyil, hər gün gözlərimiz qarşısındadır. Hər gün onunla şəhərimizin bütün küçələri boyu, bazarlarda, marketlərdə, tərəvəz mağazalarının içərisində və qarşısında rastlaşırıq.İki həftədən artıqdır ki, yuxarıda adlarını sadaladığım yerlər al qırmızı rəngə boyanıb. Bir küçədən keçirsən, bir də baxırsan ki, qarşıda elə bil yerə qırmızı yaylıq səriblər.***

Yaxınlaşırsan ki, yaylıq nədir, onlarla qablaşdırmada bir-birinin yanına düzülən çiyələkdir. Üzərlərində də qiyməti: 7 manat, 6 manat, 5 manat, 4 manat, 4 manat 50 qəpik.Sözün həqiqi mənasında, çiyələklər kənardan gəl-gəl deyir. Lakin yaxınlaşanda məəttəl qalırsan ki, İlahi, bu böyüklükdə çiyələkmi olar? Axı uzun illər çiyələyin ən böyüyünü qoz boyda görmüşük. Ondan böyük çiyələyi kim görmüşdü ki?.. Həm də mayın axırları, artıq havalar tamamilə qızmağa başlayanda çiyələk də qızarmağa başlayardı. Deməli, çiyələyin yetişməsi havanın istiləşməsi ilə bağlıdır.Aprel ayında bu böyüklükdə, bu qırmızılıqda çiyələklər nədir görəsən?.. Baxırsan ki, uşaqlar analarının əlindən çəkib o al qırmızı talaya doğru aparır: "ay ana, çiyələk al, nə olar". Yazıq ana, alsın, necə alsın, almasın, indi gəl bu uşağı başa sal ki, ay bala, bu çiyələk deyil, ölümdür.

Ye, zəhərlən, öl. Zəhərlənməsən də, sözsüz, bu çiyələklər orqanizmə xəsarətsiz ötüşməz.Etmədim tənbəllik bu çiyələkdən yarım kiloqram aldım ki, görüm dadı, tamı nədir, hansı ki, ötən il çiyələkdən dəhşətli dərəcədə zəhərlənmişdim, amma onda aprel deyildi, mayın axırları idi. Bu səbəbdən yenə aldandım və aldım. Apardım evə, yudum, birini bıçaq ilə kəsdim ki, görüm içi necədir, baxdım ki, elə üstünün qırmızılığıdır, içərisi gömgöydür. Həm də elə bil alma kəsdim, xartaxart. Denən çiyələk, səndə çiyələk adlı giləmeyvəyə məxsus bir dad və yaxud ətir vardımı? Əsla.Nə isə, bu irilikdə çiyələyin olub-olmamasını, üstünün qırmızı, içərisinin göy olmasını, qiymətini, hamısını qoyaq bir kənara. Gələk bu çiyələyin küçənin ortasında günün qabağında axşamlayıb səhərləməsinə. Deməli, tərəvəz mağazaları və küçələrdə pərakəndə meyvə-tərəvəz satanlar bu çiyələkləri düzürlər mağazanın qarşısına və ya yerə, həm də düz səhərin gözü açılandan axşamadək. Küçənin, yaxınlıqdan şütüyən avtomobillərin, adamların ayağının bütün toz-torpağı bu çiyələklərin üstündədir. Bundan başqa, daha dəhşətisi odur ki, xarab olmaması üçün soyuducuda, soyuq mühitdə saxlanmalı olan çiyələk açıq hava şəraitində günün altında səhərdən axşama qalır.

Sonra da deyirik ki, filankəsin özü, filankəsin uşağı, qonşusu, nə bilim, əmiqızısı, dayıoğlusu çiyələkdən zəhərlənib. Bəs zəhərlənməyib, nə edəcək. Bu çiyələklər gəldiyi yerdən ta buradək yalnız ölüm gətirmirmi?Lakin biz bu ölümün təhlükəsini nədənsə dərk etmirik. Elə hey çantalarımızda, səbətlərimizdə çiyələkdir ki, daşıyırıq. Nə satıldığı yerin, nə saxlandığı şəraitin, haradan gəldiyinin, hansı şəraitdə əkilib-becərildiyinin, ərsəyə gəldiyinin fərqinə varmadan.Nədənsə dərk etmirik ki, axı bu, dədə-babadan gördüyümüz çiyələkdən çox fərqlidir. Bəlkə də deyən olar ki, ay geridə qalmış, zəmanə dəyişib, bu, GMO çiyələkdir. Bax, nə deyirsiniz deyin, tək bunu deməyin. Çünki belədirsə, ta bu, birbaşa ölümdür. Həm də könlümüzü, gözümüzü oxşaya-oxşaya qapımıza dayanan ölüm...Vallah, düzgün anlayın, demirəm, bu çiyələyi yeyən kimi adam ölür. Zəhərlənmələr olur, bu, faktdır. Lakin olmadığı halda da bunu yemək təhlükəlidir, onun A, B, C vitaminləri ilə zəngin olan çiyələklə heç bir əlaqəsi yoxdur. Market, bazar və küçələrimizi "bəzəyən" bu al qırmızı rəngin əslində nə olduğunu bilmirik.Ay insanlar, gəlin, bir azca da olsa, özümüzü və ailə üzvlərimizi düşünək. Onları bu qırmızı ölümün yaxasından qurtaraq.

# 5x9=?






FELYETON

**O günləri getmişdim bazara. Kartof satanların yanından keçəndə satıcıyla alıcının bir dialoquna şahid oldum və oradaca ayaqlarım yerə yapışdı. Dedim, İlahi, gör biz nə günlərə qalmışıq...**

Satıcı:

-Ay bacı, 5 kiloqram, 90 qəpikdən.

Alıcı:

-Hə, qoy görüm nə verəcəm?

Xanım bunu söyləyib, başladı çantasını qurdalamağa. Axtarır, tapa bilmir. Çəkir-çevirir, bir də. Ay Allah, bu hara getdi, deyir. Yazıq satıcı da nə bilsin, bu nə axtarır. Sakitcə dayanıb gözləyir. Aradan bir xeyli vaxt keçdi, qadın çantasından götürdüyü böyük pul qabını açdı və içərisindən bir telefon çıxardı. Telefonu da kilidli idi. Üç-dörd dəfə kilidi yığdı, açılmadı, sonra axır ki, açdı.

Kənardan dayanıb baxıram, deyirəm bu qadın pul çıxarmaq əvəzinə niyə telefon çıxarır? Elə bu an nə görsəm yaxşıdır? Qadın telefonda hesablama maşınını açdı və 5x9 yazdı, sonra telefonu bağlayıb çantasına qoydu və satıcıya 5 manat uzatdı. Satıcı da bir az sual dolu, bir az müəmmalı baxışlarla qadını süzdü və ona 50 qəpik qaytardı və dedi:

-Ay bacı, mən də deyirəm bəs bayaqdan pul axtarırsınız çantanızda. Yoxsa əvvəldən deyərdim ki, 4 manat 50 qəpik edir. Qadın da gülümsəyib uzaqlaşdı.

Hə, elə bu hadisə başqa buna bənzər hadisələri də yadıma saldı. Həqiqətən də bu telefonlar, kompüterlər həyatımıza girdi, girmədi, beynimizi öldürməyə başladı. Hazırda hamımız - uşaqlı-böyüklü beyin ölümü yaşayırıq. Vallah, beynimiz ölüb, fatihəsi verilib, üçü, yeddisi, hətta qırxı da çıxıb.

O gün mağazalardan birindən 2 məhsul almışdım. Birinin qiyməti 1 manat 30 qəpik, o birininki isə 3 manat idi. Yaxınlaşdım ki, ödəniş edim. Satıcı hesablama makinasında 1 manat 30 qəpiyin üstünə 3 manat gəldi, dedi ki, 4 manat 30 qəpik.

Elə oradaca quruyub qaldım. Dedin, İlahi, cavan oğlandır, bu nə rəqəmdir ki, onu hesablaya bilmir. Nə isə, pulu ödəyib mağazadan çıxdım, yolboyu düşdüyümüz bu bəla beynimi qurcaladı, məni rahat buraxmadı.

Gəldim evə. Axşamüstü qonşum Gülbahar bizə keçmişdi. Ordan-burdan söhbət etdik. Həm bazarda gördüyüm hadisəni, həm də mağazada qarşılaşdığım vəziyyəti böyük yanğı ilə ona nağıl edəndə nə desə yaxşıdır?

-Rəhmətliyin qızı, gör nəyə narahat olursan ey. Üç uşağım gedir məktəbə, üçü də riyaziyyatdan çalışma həll edəndə telefonumu tutub əlimdən alır. Beş dəqiqədə məsələ-misalın cavabını orada vurub-çıxıb, bölüb, üstə gəlib yazırlar dəftərlərinə. Mənim də canım qurtarır. Ta dur onlara kömək et, bir-bir cavab tap. Allah versin telefona. Telefon olan yerdə nə lazım axı uşaq beynini yorub vurma cədvəli əzbərləyə. Yadımdadır, o vaxtlar dədəm bizə vurma cədvəlini öyrədəndə yadımızda qalmırdı, saatlarla bizi küncə qoyurdu, deyirdi, əzbər bilməmiş yatmaq yoxdur. Heyf deyil indiki dövr? Onsuz telefon hər an yanındadır, gecə yatanda da, nə istəyirsən hesabla da.

Dedim, maşallah, Gülbahar, maşallah sənə də, sənin düşüncənə də. Elə sənin kimilər deyilmi bu camaatın başına torba keçirib kor qoyanlar. Maşallah, uşaqlara qəribə tərbiyə verirsən, qəribə yol göstərirsən. Ay qız, sən onları kor edirsən ey, xəbərin var? Əziyyət çək, uşaqlara vurma cədvəlini əzbərlət.

Gülbahar:

-Qoy mənim uşaqlarım kor olsun, özüm bilərəm. Oxuyanlar yaxşı günə çıxıb, qalıb mənimkilər. Elə hamıdan da yaxşı oxuyacaqlar. Niyə vurmanı bilməyən adam olmur? Elə yaxşı olur ki. Odur ey, əmim oğlu məktəbə də getməyib, bazarın yarısı onundur. Hesabı da ancaq hesab maşınında aparır. Dedim, Gülbahar, ta mənim sənə sözüm yoxdur. Ay qız, vurmaya görə az qaldın məni vurub öldürəsən ki...

***Mətanət Məmmədova***



# Xoşqeyrət

**Lalə Mehralı**

***Biz ondan sonra içdən-çöldən çürüməyə başladıq ki, efirlərdə ailə məsələləri müzakirə edilməyə başladı. Kimin əli kimin cibindədir, kim kimin evindən çıxır, kim kimin əri ilə gəzir, kim kimin arvadına sataşır - hamısı efirdə nümayiş etdirilir. Utanmadan, qızarmadan, xəcalət çəkmədən, elə belə də olmalı imiş kimi, elə beləsi normalmış kimi***

Mənəvi deqradasiya yaşamağınız, həyata nifrət etməyiniz, eyni cəmiyyətdə yaşadığınız insanlara heyrət etməyiniz üçün televiziya kanallarındakı "sosial layihə" adı verilən proqramlara baxmağınız yetərlidir. Bir neçə dəqiqə izlədikdən sonra, efirdə özünə ər ya arvad axtaranlar, arvadını başqa kişi ilə tutub videosunu çəkib efirdə milyonlara nümayiş etdirənlər, bir-birinin bütün paxırını milyonların gözü önündə açıb sonra heç nə olmamış kimi həyatlarına davam edənləri tanıdıqdan sonra bu günədək o proqramlara baxmadığınız üçün özünüzə böyük bir "afərin" də deyəcəksiniz.

Bizim adətlərimizdə, dəyərlərimizdə ağlayan kişini görmək müəyyən qədər başadüşülən olub, amma yalvaran kişini görmək dözülməzdir. Cəmiyyət qadını bütləşdirdikcə qadının quluna çevrilib, kişilər zəiflədikcə qadınlar qəddarlaşıb. Bizim təbiətimiz belədir, yanımızdakı kişini güclü görmək istəyirik.

Ağlayan və yalvaran kişi qadında ancaq ikrah hissi yaradır. Efirə çıxıb azyaşlı övladlarını atıb başqa kişi ilə qaçan arvadına yalvaran, evə qayıtmağa razı salmağa çalışan kişiləri görəndə ürəyim bulanır. Xoşqeyrət kişilər efirdə başqa kişiyə qoşulub getmiş arvadını axtarır, xoşqeyrət kişilər xəyanət üstündə yaxaladığı arvadının video-görüntülərini efirdə nümayiş etdirir, xoşqeyrət kişilər başqasına qoşulub getmiş, xəyanət videosunu yayılmış arvadına yalvarır, yaxarır

Nə faydası var ki bu proqramların? Ailələri rüsvay etməkdən, biabırçılıqlarını ifşa etməkdən başqa nə kimi missiyası var? Efirə nümunələr çıxarılırdı əvvəllər, örnəklər, ideallar çıxarılırdı. Bəs indi? Ölkədə nə qədər əxlaqsız, avara varsa efirə çıxarılır, onsuz da qıl körpüsündə olan gəncliyə "qarğa, məndə qoz var" misalı göstərilir.

Reytinqləri var, baxılır. Reklam gətirir kanallara, ona görə yayımlanır. Reytinqlərə görə cəmiyyəti məhv edirlər, etməyin! Biz niyə hansısa əxlaqsızın olmayan ailəsinin intim məsələlərinə baxmalıyıq? Biz niyə arvadı qaçan kişinin iyrənc yalvarışlarını dinləməliyik? Biz niyə 3 uşağını atıb başqası ilə qaçan qadının üzsüzlüyünü seyr eləməliyik?

Gündüz saatlarında yayımlanır, hələ həyatı yenicə tanımağa çalışan yeniyetmələr də ailə böyükləri ilə bərabər oturub saatlarla bu biabırçılığı izləyir və beləcə müqəddəs bildiyimiz bütün dəyərlərdən qoparaq böyüyürlər. Nikahdankənar cinsi münasibət yaşayanlar, başqa kişidən uşaq dünyaya gətirən evli qadınlar, bunu efirdə "bəh-bəh"lə təqdim edən televiziya kanalları o tərtəmiz beyinləri zəhərləyir.

Bu proqramlar bilavasitə ailə və cəmiyyət strukturunu hədəf alır və bizi məhvə aparan dəhşətli təhlükədir. Üzünə dünyanın bütün alçaq söyüşlərini də söysən, bütün təhqirləri ünvanına da yağdırsan, rəzil edib yerə də soxsan, atasına-anasına da söysən, başqa kişiyə qoşulub qaçan arvadına yalvaran xoşqeyrətlərlə dolub cəmiyyət.

# Ölkəmizdə baytarlıq xidmətinin təşkili hansı səviyyədədir?

"Azərbaycan Respublikasında baytarlıq təbabəti haqqında qanun 2005-ci ildə qəbul edilib. Həmin qanunda baytarlıq xidməti dövlət və qeyri-dövlət olmaqla iki hissəyə bölünüb. Dövlət baytarlıq xidməti heyvanların sağlamlığının qorunması, heyvandarlıqda məhsulların artırılması, əhali üçün xüsusi təhlükəli xəstəliklərinin qarşısının alınmasında tənzimləyici funksiyanı yerinə yetirir. Qeyri-dövlət baytarlıq xidmətlərinə isə fərdi və özəl baytarlıqla məşğul olan mütəxəssislər aiddir. Fərdi baytarlıq və özəl baytarlıq xidmətləri bir-birindən tamamilə fərqlənir. Belə ki fərdi baytarlıqla məşğul olan mütəxəssislər fiziki şəxs kimi fəaliyyətlərini davam etdirə bilirlər. Özəl baytarlıqla məşğul olanlar isə lisenziyalar və icazələr haqqında qanuna uyğun olaraq fəaliyyətlərini həyata keçirirlər". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq Aqrar Xidmətlər Agentliyinin sədr müavini Eldar Həsənov deyib.O bildirib ki, ölkəmizdə hal-hazırda dövlət özəl baytarlıq əməkdaşlığı cənab Prezidentin 998 saylı fərmanı ilə tənzimlənir: "Artıq



2021-ci ildən etibarən ölkədə fərdi baytarlıq fəaliyyəti ilə məşğul olan əməkdaşlarımız iş prinsiplərini qurublar. Bizim məqsədimiz nəinki fərdi baytarlığın yaradılması, eyni zamanda baytarlıq xidmətində görüləcək işlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasıdır. Dövlət tərəfindən ilk dəfə olaraq bu xidmət yaradıldıqda həmin sahədə məşğul olan əməkdaşlar bütün maddi-texniki təchizat bazası ilə təmin edilib. Həmçinin, KOBİA tərəfindən əməkdaşlarımıza biznesin idarə edilməsi, hesabatçılığın təşkil edilməsi və digər biznes sahələri üzrə xüsusi təlimlər keçirilib. Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Xidmətlər Agentliyinin Təlimi Mərkəzi tərəfindən işçilərdə xəstəliklərin qarşısının alınması, yeni yaranmış xəstəlik ocaqları ilə mübarizə, yeni nəsil preparatlarından istifadə qaydaları barədə mütəmadi olaraq maarifləndirmə işləri davam etdirilir".

***Ləman Əlizadə***

TƏRS BAXIŞ

# Milli strateji düşüncəsiz

**Hə, atalar, vallah, nə deyibsə, yerində deyiblər. Sanki əlləkdən yüzlərcə dəfə süzülüb gəlib o deyimlər. Məsələn, "ot kökü üstündə bitər" deyimini eşitdiyim bir xəbərlə o qədər uzlaşdırdım ki...**

Hazırda Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri, əvvəllər isə Müsavat Partiyasının rəhbəri, Ali Sovetin sədri olan İsa Qənbərin oğlu İlkin Qənbərin 24 aprel - qondarma "erməni soyqırımının" ildönümündə "Bu gün erməni soyqırımının ildönümüdür. Bir də olmasın",- deyə paylaşım edərək onların yanında olması və erməni soyqırımına göz yaşı axıtmasını, onu filmlərdə yaşatmasını eşidəndə, daha nə deyə bilərdim ki... Dedim ki, ay uşaq, səndə günah yoxdur, ot kökü üstündə bitər.

Soruşsalar ki, niyə? Belə izah edərdim ki, birincisi, uşaq ailədə tərbiyə alır. Ola bilməz ki, sən səhərdən axşamadək tarixin həqiqətlərindən danışasan, övladın qapını örtüb çıxıb kənarda onun əksini danışa. Bu, mümkünsüzdür. İkincisi, heç istəyirsən, danışma, ot kökü üstündə bitər. O kökdən necə qidalanarsa, su içərsə, böyüyərsə, ona oxşamayıb, mənə oxşamayacaq ki...

Ata İsa Qənbər 90-cı illərdə hakimiyyətdə qalmaq, vəzifə kürsüsünü əbədi etmək üçün həmfikirləri ilə birlikdə Qarabağı ermənilərə peşkəş edənlərdən deyilmi? Onlardandır. Deməli, uşağı necə tərbiyə etməkdən asılı olmayaraq, o, kökə çəkir.

O peşkəşin bu xalqa nələrin bahasına başa gəldiyini necə, xatırlamayan varmı? Yoxdur...

Əgər yayınıb bilməyən varsa, qısaca xronika verim, bilsinlər: 30 il həmin satılan Qarabağ erməni kimi murdar yaranmışın işğalı altında qaldı. Minlərlə soydaşımız evindən-eşiyindən, dədə-baba yurdundan qovuldu. Ermənilər tərəfindən silahın ucunda yurdlarını tərk etdilər. Başını yuxarı qaldıranlar vəhşicəsinə qətlə yetirildi.






Torpaqlarımız talan olundu, yeraltı-yerüstü sərvətlərimiz daşınıb bazarlara çıxarıldı. Ermənilər evlərimizi talayıb, sonra od vurub yandırdılar...

Tarixi-mədəniyyət abidələrimiz məhv edildi. Yüzlərlə məktəb, muzey, kitabxana, digər sosial obyektlər göyə sovuruldu. Heykəllər təhqir olundu. Məscidlərimiz görünməmiş vəhşiliyə məruz qaldı...

Birinci və İkinci Qarabağ müharibələrində minlərlə oğul və qızımız şəhid oldu. Minlərlə qazi qazandıq. Ölkəmizin milyonlarla manat dəyərində silah-sursatı, hərbi texnikası məhv oldu.

Xocalı kimi faciəni yaşadıq. Soydaşlarımız soyqırımına məruz qaldılar. Bax, Xocalını sonda dedim ki, münasibətimi belə bildirim: bu faciəni görən, eşidən, haqqında məlumat alan bir gənc necə ola bilər ki, "erməni soyqırımına" inanıb onu təbliğ etsin? Onların yanında olsun. Onların uydurma tarixini yaşatmaq üçün film çəksin...

Təəssüf, həm də çox təəssüf... Azərbaycanın çörəyi, suyu, havası haramın olsun, ay uşaq. Sən get otur xarici ölkədə erməninin tərəfini saxla, sənin yaşıdların da getsin Qarabağda atangillərin satdıqları torpaqları geri alsın, şəhid olsun, anası bacısı, sevgilisi, nişanlısı ağlar qalsın, bu, faciədir... Gör, kimlər şəhid olur, kimlər yaşayır. Ey dünya, sən nə fani dünyasan...

Sonda düşünürəm ki, görəsən Azərbaycansız, Vətənsiz, bu xalqsız, bu məmləkətsiz yaşamaq mümkündürmü? Xeyr, nəinki yaşamaq, nəfəs belə almaq mümkün deyil. Bəs belə isə bir paylaşımla bütün bunları silib vətənsizliyi, millətsizliyi, Azərbaycansızlığı İlkin Qənbər necə gözə ala bildi?..

Daha sonra da fikirləşirəm ki, sən nə qoyub, nə danışırsan? Ot kökü üstündə bitmirmi? Ata necə, oğul da elə...

Lap sonra isə bir məsələyə hələ də məəttəl qalıram: ata Milli Strateji Düşüncə Mərkəzinin rəhbəridir, oğulsa milli düşüncədən korluq çəkir. Bunu anlayan varsa, mənə də izah etsin...

***Mətanət Məmmədova***

# Vahid Əhmədova xatırlatma

Hər bir demokratik düşüncəli dünya xalqına, sivil dövlətlərə məlumdur ki, Azərbaycan bütün sahələrdə böyük inkişafı təmin etmiş müstəqil bir dövlətdir. Bu dövlətin sabahının bu gündən daha rəngarəng və gözəl olması onu göstərir ki, Ümummilli Liderimiz Heydər Əliyev sosial, siyasi və digər sahələri əhatə edən və xalqımız üçün çox faydalı bir irs qoyub getmişdir. Bu gün bu irsi Onun ən layiqli siyasi varisi, Yenilməz Sərkərdə, Prezident İlham Əliyev çox böyük uğurla davam etdirir. 44 günlük Vətən müharibəsində əldə olunan parlaq qələbə ölkəmizin seçdiyi və getdiyi yolun yalnız qələbələrə apardığını göstərir. Lakin bu uğurlardan narahat olan qüvvələr var. Haradasa xarici məkrli qüvvələrin boş qazanı danqıltmaları anlaşılandı. Nədən ki, onlar xain və riyakar oğru aleminin təmsilçiləridir. Azərbaycanda doğulub, Azərbaycanın çörəyini yeyib, suyunu içib, sakit, cah-cəlallı ömür yaşayan insanın gözlənilmədən mövqeyində və fəaliyyətində sapmalara yol verməsi başa düşülən deyil.



Təəccüblü məqam ondan ibarətdir ki, simasızlıq və riyakarlıq yolunu tutanlar sırasına bəzən uzun illər vəzifə kreslosunda olmuş və həmin kreslonun tilsimli sehrindən geninə-boluna istifadə etməklə özünə və ailə üzvlərinə, hətta yaxın, uzaq qohumlarına geniş imkanlar yaradan vəzifə mənsubları da qoşulurlar. Elə götürək Milli Məclisin deputatı Vahid Əhmədovun özünü bloger adı ilə sosial şəbəkələrə sırıyan məxluqa açıqlamalar verməsin. Açığı Vahid Əhmədovun sərgilədiyi davranışdan mən bir yazar olaraq təəccüblənmədim. Çünki elə ilk baxışdan harın və qudurğan adam təsiri bağışlayan, özünü xəzri küləyi kimi nümayiş etdirən V.Əhmədovdan sağlam və milli maraqlara uyğun fikir gözləmək absurddur. Dələduzluq edən, tərbiyəsiz fəaliyyəti ilə tanınan bir şəxsə müsahibəsində öz deputat həmkarlarını aşağılaması və onları xain, xalq düşməni adlandırması, saxta seçilməkdə ittiham etməsi V.Əhmədovun anadan qüsurlu doğulduğunu, yaşlaşarkan ağlında ciddi psixoloji problemlər yarandığını göstərir.

Xaraktercə ziddiyyətli və ikibaşlı oyunları ilə seçilən və tanınan V.Əhmədov hələ Ayaz Mütəllibovun hakimiyyəti dönəmində onun qılığına girərək, Nazirlər Sovetində vəzifə əldə edə bilmişdi. Elə ki, AXC- Müsavat cütlüyü hakimiyyəti zəbt etdi, V.Əhmədov dərhal cildini dəyişib oldu "milli demokrat", mükafatı da baş nazirin birinci müavini vəzifəsi. Hətta iki-üç ay baş nazir səlahiyyətlərini icra etməyi bacardı. 1993-cü ildə vəzifə pillələrində irəliləməsinə son qoyulan V.Əhmədov 2005-ci ildə yenidən siyasi arenada peyda oldu. "Yeni Siyasət" Blokunda təmsil olunmaqla V.Əhmədov elə həmin ildə Milli Məclisə düşə bildi. İlk dönəmdə deputat kimi fəaliyyətsizliyi ilə seçilən V.Əhmədov sonrakı mərhələdə şəffaflıqdan, açıq bazar iqtisadiyyatından, rüşvətə qarşı mübarizə tədbirlərindən danışmağa başladı. Sonradan bəlli oldu ki, onu danışdıran iş birliyində olduğu keçmiş Milli Təhlükəsizlik naziri Eldar Mahmudovun əməkdaşlarıdır. Yəni onların ayrı-ayrı məmurlar, deputatlar haqqında verdikləri məlumatları tirajlayır. Yenə də olanlara nəzər salsaq, demək olar ki, bu gün məhkəmələrdə "MTN işi" adı ilə cinayət işləri araşdırılmış proseslərdə neçə- neçə sahibkarın əmlakının əlindən alınmasında bu və digər formada Əhmədovun da istəyi və rolu olmamış deyil. Niyə də olmasın ki? Əgər deputatı və vəzifəli şəxsi açıq şəkildə tənqid edirsə, deməli, onların cəzalandırılması sifarişlərini də verə bilər.

Blogerə verdiyi müsahibəsində daim şəffaflığın təmin olumasına çalışdığını uyduran V.Əhmədov nəyə görə yaxın dostu və qohumu, Azərbaycanın keçmiş müdafiə naziri Səfər Əbiyevin elan etdiyi tenderlərdə qardaşı ilə birlikdə iştirak edib, torbadan qalib olaraq çıxırdı? Guya V.Əhmədov əsgərləri ətlə və digər ərzaq məhsulları ilə təmin edirmiş. Bu barədə geniş müzakirə aparmaq fikrindən uzaq olaraq, sadəcə, onu qeyd edim ki, həmin ətlərin mənşəyi məlum deyildi, haradan, necə əldə edildiyi də müəmmalı olaraq qalır.

Müsahibəsində V.Əhmədov parlamentdə təmsil olunan 2-3 təmiz deputatdan biri olduğunu iddia edir. Sual yaranır, necə təmiz, vicdanlı insandır ki, bir şəhid ailəsinə və ya bir Vətən müharibəsi qazisinə yardımçı olmayıb. Sumqayıtın gəzməli, görməli yerlərindən olan dənizkənarı bulvar ətrafında yaşayış binaları inşa etdirən, obyektlər tikdirən V.Əhmədovun sahibi olduğu, lakin qardaşı Rasim Əhmədovun rəhbərlik etdiyi "Arko Təmir" Tikinti Şirkəti deyilmi? Qubada çoxsaylı obyektlər, Bakı şəhərinin Xətai rayonunda mənzillər V.Əhmədovun deyilmi? Nizamnamə kapitalı cəmi 10 manatdan ibarət "Arko Təmir Tikinti Şirkəti"nin ötən il "Azərsu" ASC-nin 5 milyonluq tenderinin qalibi olması, təbii ki, Vahid Əhmədovun xahişi əsasında baş tutub.

Bir sözlə, demək olar ki, ayaqdan başa qədər çirkabın içində olan V.Əhmədovun özünü həqiqət carçısı kimi təqdim etməyə çalışmasına, ancaq artıq tarixin arxivində olan "Yeni Siyasət" Blokunun naftalin iyi verən təmsilçiləri inana bilər. Onların kimliyinə və hansı əxlaqa və əqidəyə qulluq etdikləri də hər bir cəmiyyət üzvünə bəllidir. Sabah V.Əhmədovun AXCP -yə və ya Müsavata keçdiyini bəyan edib, tutuquşu kimi Əli Kərimlinin, A.Hacılının və ya Cəmil Həsənlinin dediklərini təkrarlasa təəccüb doğurmaz. Nədən ki, "su axıb, çuxurunu tapar" el məsəli səbəbsiz yerə deyilməyib.

***İ.ƏLİYEV***



## "Separtçılar başa düşməlidirlər ki..."

"Ermənistan -Azərbaycan dövlət sərhədində Azərbaycan sərhəd -keçid məntəqəsi yaratdıqdan sonra Xankəndindəki erməni terrorçuları müqavimət göstərəcəklərini, yeni bir hərəkata başlayacaqlarını bəyan etmələri gözləniləndir. Çünki, separatçılar özlərini uydurma xəyallara inandırmışdılar. Bu gün isə reallıq odur ki, Həkəri körpüsünün üzərində DSX-nin nəzarət-keçid məntəqəsinin yaradılması separatçıların bütün xəyallarını heçə endirmişdir".



Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.

A.Badamov bildirdi ki, Xankəndidəki terrorçular müqavimət göstərəcəklərindən danıışırlar : "Hesab edirəm ki, separatçıların xırda təxribat cəhdləri də gözləniləndir. Amma Müzəffər Ordumuz ölkəmizin qanunlarına qarşı yönəlmiş hər bir təxribatın qarşısını çox ciddi şəkildə almağına qadirdir. Separtçılar başa düşməlidirlər ki, gəmidə oturub kapitanla mübahisə edəni okeana atırlar. Ona görə də, nə qədər ki, gec deyil yeni terror hadisələri düşünmək əvəzinə ağıllarını başına cəmləyib gələcəkləri qurmaq üzərində düşünsünlər".

***GÜLYANƏ***

# Qlobal böhran şəraitində Azərbaycanın ərzaq təhlükəsizliyi

## Qlobal ərzaq böhranı aqrar sektorun inkişafını 1 nömrəli prioritet kimi qarşıya qoyur



Dünya yeni ərzaq böhranı dövrünə qədəm qoymaqdadır. Ərzaq məhsullarının qiyməti durmadan bahalaşır. Buna qlobal istiləşmə və quraqlıq səbəbindən istehsalın azalması səbəb olur. Rusiya və Qərb arasında davam edən Ukrayna böhranı və tərəflərin bir-birilərinə qarşı tətbiq etdikləri sanksiyalar vəziyyəti daha da gərginləşdirib. Neft, qaz, əlvan metallar və sair məhsullardan başqa, taxıl başda olmaqla ərzaq məhsulları da bahalaşır. Artıq Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin əhalisi bundan ciddi zərər çəkməkdədir. Bir qədər əvvəl bizdə də çörək və un məmulatları bahalaşdı, digər ərzaq məhsullarında da bahalaşma var. Son aylarda taxılın qiymətində bir qədər azalma olsa da, Taxıl Sazişinin pozulması ilə qarşıdan daha bir taxıl böhran gələcəyi gözlənilir.

Beynəlxalq təşkilatların hesablamalarına görə, ərzaq böhranı gedikcə güclənəcək,







ekoloji problemlər səbəbindən məhsul istehsalı azalacaq və minimal ərzaq təminatı ala bilməyən insanların sayı xeyli artacaq. Qlobal ərzaq qıtlığı problemi ən çox idxaldan asılılığı çox olan ölkələri təhdid edir. Azərbaycanda da taxıl başda olmaqla, zəruri ərzaq məhsullarının təxminən yarısı idxal hesabına formalaşır. Bu vəziyyətdə dünyada həmin məhsulların bahalaşması ölkəmizdə də bahalaşmaya səbəb olur. Son aylarda ərzaq məhsullarında qiymət artımları tendensiya halını alıb. İndi azad bazar dövrü olduğundan hökumət qiymətləri tənzimləyə bilməz və bu səbəbdən bunun qarşısını inzibati metodlarla almaq çətindir. Bu problemin həlli yolu ölkədə ərzaq istehsalının yüksəldilməsi və idxaldan asılılığın ləğv edilməsindən keçir.

Bazar iqtisadiyyatının və qiymət liberallaşmasının özünün qanunauyğunluqları var. Hökumətin qiymətin artmasının qarşısını yox, qiymətin dəyişməsi prosesi zamanı əhalinin rifahını qorumaq, alıcılıq qabiliyyətini təmin etmək, yəni, heç olmasa, sosial müdafiəyə ehtiyacı olan təbəqələrin vəziyyətinin pisləşməsinin qarşısını almaq üçün tədbirlər görməsi vacibdir.

İnzibati üsullarla qiymət tənzimlənməsi o zaman mümkündür ki, ölkədə məhsul bolluğu var və qiymət artımı süni inhisarçılıq hesabına yaranıb. Amma qiymət artımlarının baş verməsi əsasən, xarici amillərin hesabına olduqda inzibati üsullarla tənzimləmək də mümkün olmur. Ölkədə istehsal olunan, amma əhalinin tələbatını ödəməyən məhsulları özəl şirkətlər və sahibkarlar idxal edirlər. Onlar da hər hansı malı baha aldıqda, baha da satmalıdırlar.

Kimisə hər hansı məhsulu xaricdən gətirib öz qiymətinə satmağa məcbur etmək olmaz. Bu vəziyyətdə dövlət aztəminatlı təbəqələr üçün güzəştli siyasət yürüdə bilər. Hökumət sosial və iqtisadi mexanizmlərlə bu prosesə təsir edə bilər, ancaq inzibati vasitələrlə heç nə etmək mümkün deyil.

Qiymət artımında xarici amillərin təsir payı böyük olsa da, daxili amillərin də təsiri olmamış deyil. Bunlardan bəzi istehsal və idxal sahələrində inhisarçılığı və yerli məhsulda qiymət artımını şərtləndirən stimullaşdırıcı tədbirləri göstərmək olar. Əgər ölkədə enerji daşıyıcılarının və suyun qiyməti bahalaşırsa, maya dəyərinin bundan asılı olduğu məhsulların qiymətinin artması təbiidir.

Son illərdə Azərbaycanda iribuynuzlu mal-qara, qoyun və keçiləri sayı azalmaqda davam edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, son 1 ildə iribuynuzlu malqaranın sayı 115 min baş, qoyun və keçilərinin sayı isə 800 min baş azalıb.

2022-ci ildə Azərbaycana 4,818 min ton mal-qara əti idxal edilib ki, bu əvvəlki ildən 15,8 faiz azdır. Demək, ət tələbatında yerli istehsalın payı artıb.

2022-ci ildə Azərbaycana ümumi dəyəri 436 milyon 551,2 min dollar (artım 31,5%) təşkil edən 1 milyon 293 min ton (artım 12,6%) buğda idxal edilib ki, bu da 2021-ci ilin göstəricisindən 12,6% çoxdur. Ötən il Azərbaycan həmçinin 322,294 min ton xam şəkər və şəkər məmulatı (artım 6,1%), 142,489 min ton bitki yağları (artım 6,1%), 14,406 min ton çay (artım 3,2%), 18,562 min ton süd məhsullları və kərə yağı (artım 22%) idxal edilib.

Keçən il aqrar məhsulların ixracı da artıb. 2022-ci ildə Azərbaycandan aqrar və aqrar sənaye məhsullarının ixrac dəyəri 912,4 milyon dollar təşkil edib ki, bu da 2021-ci ilin göstəricisindən 11,8% çoxdur. Demək qiymətlərin artmasında xarici amillərin payı çoxalıb.

Qiymət artımında daha bir əsas amil də inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır.

Dünya bazarında bəzi məhsulların qiymətlərinin artması o demək deyil ki, bu ölkədə ucdantutma bütün məhsulların bahalaşmasına səbəb olmalıdır. Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma asan olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Məsələn, ABŞ və əksər Avropa ölkələrində, həmçinin, Rusiya və Türkiyədə dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətinə alınacağı haqda öncədən müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını, və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Azərbaycanda da dövlət tərəfindən aqrar sektora güclü maliyyə dəstəyi verilir, milyardlarla manat subsidiya ayrılır, müxtəlif güzəştlər tətbiq olunur, dövlət proqramları həyata keçirilir. Bu sahədə müəyyən naliyyətlər əldə olunub, lakin hələ də potensialımızdan xeyli aşağı göstəricilərə sahibik. Demək qəbul olunan dövlət proqramlarının icrası effektli aparılmayıb və bu məsələyə daha ciddi diqqət verilməlidir.

Azərbaycan hökuməti kənd təsərrüfatının inkişafına 2023-cü ilin dövlət büdcəsindən 1,2 milyard manat vəsait ayırmağı planlaşdırır ki, bu da 2022-ci illə müqayisədə 20,5 faiz çoxdur. 2023-cü ildə Qarabağ və Şərqi Zəngəzurda yeni torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi də daxil olmaqla ölkədə ərzaq təhlükəsizliyi tədbirləri üçün 625,2 milyon manat vəsait nəzərdə tutulub.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Aqrar sektorun konseptual inkişafı üçün ciddi bir proqrama ehtiyac duyulur. Buraya ərzaq təhlükəsizliyi də daxildir. Ərzaq təhlükəsizliyi həm də kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Kənd təsərrüfatı isə yeyinti sənayesi və yüngül sənayenin inkişafı üçün birbaşa mənbədir.

Qarşıdan qlobal ekoloji problemlər (quraqlıq, su çatışmazlığı və s) və ərzaq qıtlığı gəlir. Belə bir şəraitdə aqrar sektorun inkişafı ən prioritet məsələyə çevrilməlidir. Bu sahədə xüsusi geniş dövlət proqramının qəbul olunması və kompleks tədbirlərin görülməsi vacibdir.

***Elçin Bayramlı***

ANALİZ

# Sünnəti kim etməlidir: Dəllək yoxsa həkim?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

**Diqqətli oxucular xatırlayar, bir neçə il əvvəl Kürdəxanı kəndində 2 aylıq körpə sünnət zamanı qanitirmədən həyatını itirmişdi. Ev şəraitində edilən sünnətdən dərhal sonra valideynləri qanın kəsmədiyini görüb uşağı xəstəxanaya aparıblar, lakin xəstəxanaya çatmamış uşaq yolda dünyasını dəyişmişdi. Həkimlər bəlkə həyata qaytarmaq mümkün olar deyə uşağa tibbi müdaxilə etsə də körpənin həyatını xilas emək mümkün olmadı.**





Sünnət olunan uşağın anası hemofiliya xəstəsi olub. Həkimlərin fikrincə bu xəstəlik anadan daha çox oğlan övladlarına keçə bilir. Körpə doğularkən və 2 aylıq ömrü boyunca kifayət qədər çox həkim və tibbi personalla ünsiyyətdə olub, lakin heç bir tibb işçisi ailəyə körpənin irsi xəstəliyinin ola biləcəyi ehtimalını deməyib. Ailədə ananın irsi xəstəliyini bilənlər isə bunun körpənin sünnət edilməsində problem olacağını düşünməyiblər. Haradan baxsan bu hadisədə etinasızlıq, savadsızlıq faktoru vardı yəni.

Sünnətin evdə və ya peşəkarlara edilməsi artıq mədəniyyət məsələsidir. İndi informasiya əsrində yaşayırıq, hər bir ailə özü bilməlidir ki, bunun fəsadı ola bilər. Eləcə də hamı bilməlidir ki, hər bir işin peşəkarı var. Sünət tibbi əməliyyatdır, üstəlik kifayət qədər riskli cərrahiyə əməliyyatlarındandır. Əməliyyatı isə ev şəraitində yox, xəstəxanada etmək lazımdır. Sünnətdən öncə hər bir oğlan uşağı fərdi olaraq yoxlanılmalı, bütün qan dəyərləri ölçülməli, analizləri aparılmalıdır. Ola bilər bu uşağın qanında laxtalanma problemi var, ola bilər trambozla bağlı problemi var, ola bilər sünnətliyində müəyyən bir anomaliya mövcuddur. Ola bilsin ki, həmin hissədə bir xal, şiş var, sünnət ümumiyyətlə olmaz. Ona görə də sünnət ediləcək hər bir uşaq fərdi şəkildə müayinə olmalıdır. Biz indi sürət əsrində, texnoloji yeniliklərin bol olduğu dövrdə yaşayırıq, həkimin və xəstəxananın əlçatmaz olduğu uzaq əsrlərdə yaşamırıq.

## Valideynlər etinasızdır yoxsa adətlərə bağlı?

Ümumiyyətlə,körpə dünyaya gələn gündən tibbi personların əhatəsində olur. Əvvəl doğum evində nəzarət edilir, sonra evə müəyyən müddət ərzində təyin olunmuş sahə tibb bacısı gəlib-gedir, körpə hər ay qeydiyyatda olduğu poliklinikaya aparılır. Bu ərəfədə həkimlər valideynlərə məlumat verməlidirlər ki, uşağın sünnət edilməsi nə zaman məsləhətlidir, sünnət əməliyyatı həkimlər tərəfindən klinikada aparılmalıdır, ev şəraitində sünnət etmək həyati risk daşıyır. Valideyn bilməlidir ki, xəstəxana şəraitində əməliyyatla sünnət edilən uşaq əməliyyatdan sonra 6-7 saat xəstəxanada saxlanılır ki, təhlükə yaransa müdaxilə edilsin. Evdə bu təhlükə anında müdaxiləni kim edəcək?

Zənnimcə qanunla ara dəlləklərinin sünnət etməsini qadağan etmək olar. Lakin buna nəzarət mexanizmi də mükəmməl işlənməlidir, əks halda qarışıqlıq olacaq. Əgər insanlar özləri bunu şüurlu şəkildə başa düşmürlərsə, ev şəraitində sünnət edilməyin ölümə səbəb olacağını anlamırlarsa vəziyyət dəyişməyəcək. İndi hansı valideyni uşağını dəlləyə sünnət etdirdiyinə görə cəzalandırmaq olar? Valideynlərlə maarifl ənmə işləri aparılmalıdır, onlar bunun təhlükəli olduğunu qəbul etməlidirlər. Bu işi həm mətbuat nümayəndələri, həm də səhiyyə işçiləri etməlidir. Ümumiyytlə, Səhiyyə Nazirliyi bütün poliklinikalara, qadın məsləhətxanalarına, uşaq doğum evlərinə bütün hallarda valideynlərə bu barədə informasiya verilməsi, maarifləndirmə işləri aparılması üçün tapşırıq verməlidir.

Valideynlərin bu məsələdə etinasız olduğunu düşünənlər çoxdur. Amma "dədə-baba" qaydası ilə sünnət tərəfdarı olan valideyn də çoxdur. "Bizə necə edilibsə o cür olsun" fikri ilə sünnətin ev şəraitində, qeyri-steril yerdə, ixtisası həkim olmayan biri tərəfindən reallaşdırılması fikri ən çox onların israrıdır.

## Sünnət insan haqlarının pozulması deməkdir?

Amerika Sünnət Əleyhinə Həkimlər (Doctors Opposing Circumcision, DOC) Birliyinin sünnətlə bağlı yaydığı açıqlamada bildirilir ki, DOC yeni doğulan oğlan uşaqlarının sünnətinin əleyhinədir. Həkimlər bildirirlər ki, köməksiz körpə üzərində bu əməliyyatı aparmaq insan haqlarına ziddir və tibbi baxımdan gərəksizdir. Açıqlamada deyilir ki, tibb elmində sünnəti vacib sayan heç bir araşdırma həqiqəti əks etdirmir. Həkimlər bildirir ki, sünnətdə olan qorxu, insan bədəninin formasını dəyişmək, bir şəxsiyyət kimi alçatmaq insan haqlarına zidd və bütün bunlar sünnətlə reallaşdırılır.







Sizcə haqlı deyillər? "Dədə-baba" qaydası ilə edilən sünnətlərin uşaq psixologiyasında yaratdığı travmanı təxmin etmək olur. Heç bir keyidici dərmandan, iynədən istifadə etmədən insan ətindən ət kəsmək, üstəlik bunu azyaşlının bildiyi halda etmək nə qədər etikdir? Həkimlər, xəstəxanalar, cərrahiyə elmi niyə var? 5 dəqiqəlik narkozla bu məsələni ağrısız, travmasız həll etmək mümkündüsə o uşaqlara bu dəhşət niyə yaşadılır?

## Sünnəti nə vaxt və harada etdirməli?

Həkimlər sünnət ediləcək uşaqların 2, 3, 4, 5 yaş aralığında edilməməsinin tərəfdarıdır. Bu yaşlar uşağın "fallik dövr" adlandırılır, uşağın öz psixi və cinsi kimliyinin fərqində olduğu zamandır. Belə bir zamanda uşağa məcburiyyəti olmayan bir əməliyyat edilsə, bu uşaqda qalıcı travmalara səbəb ola bilər. Həkimlər ailələrə sünnəti adətən 3 aylıqdan sonra 2 yaşınadək, bir də 6-7 yaş aralığını məsləhət görürlər.

Sünnət əməliyyatı heç bir sağlamlıq problemi olmayan uşaqların üzərində edilən əməliyyatdır. Ona görə sağlam uşaq olmalıdır ki yazının girişində qeyd etdiyim ölüm halları təkrarlanmasın. Sünnət bir əməliyyatdır və xəstəxana şəraitində olunmalıdır. Ev şəraitində sünnətin ağırlaşma halları çox müşahidə edilir, bəzən uşaq evdə sünnət edilməsi zamanı yerli keyləşdirici inyeksiyasından sonra anafilaktik şoka girir və müdaxilə üçün imkanlar yetərli olmur.

Xəstəxana şəraitində sünnət etməyin də yolları fərqli olur. Bəzi həkimlər yerli keyitmə, bəzisi ilə ümumi narkozla olmasının tərəfdarıdır. Ümumilikdə sünnət əməliyyatı zamanı ümumi narkoz tətbiq edilməsi həm həkimin işini rahatlıqla görməsinə kömək edir, həm də sünnət edilən uşağın daha az travma yaşamasına. Çünki hər uşaqda yerli keyitmə eyni effekt verməyə bilir və əməliyyat prosesində uşağın narahatlığı olarsa bu həkimin də özünü narahat hiss etməsi və problemli bir əməliyyat prosesi deməkdir.

## "Lazerlə sünnət" daha yaxşıdır?

Normal halda sünnət xəstəxana şəraitində bir cərrah tərəfindən, ənənəvi alətlər vasitəsilə edilir. Yəni xalq arasında "lazer sünnəti" deyilən üsul əslində yoxdur. Lazer adlandırılan alət "monopolyar koterin" və ya "termokoter"in xalq arasında istifadə olunan adıdır. Tibbdə əməliyyatlarda koterlərdən qanamanı nəzarətdə saxlamaq üçün istifadə olunur. Cinsiyyət üzvü, sidik axarı kimi nazik uc orqanlarda monopolyar koter istifadəsi təhlükəlidir. Sünnət edilərkən "lazerlə" dərinin kəsilməsi , kəsilən yerlə yanaşı qonşu toxumaları da yandıra bilər. Bu qalıcı fəsadlara səbəb ola bilər. Daha aydın dillə izah etsək, qansız, "lazerlə sünnət" adlandırılan üsul ilə sünnət icra edilməməlidir. Sünnət klassik usul ilə həyata keçirilməlidir, bir şərtlə ki həkim icra etsin.

Cərrahlar keçmişdən bu günə yayılan bir adəti də doğru hesab etmirlər. Daha çox yaşlı nəslin nümayəndələri sünnət dərisini geri çəkərək uşaqların sünnətliyinin ucunu təmizləyirlər. Bu çox yayılmış bir ənənədir. Həkimlər bunun sünnət dərisinə və penis başına zərər vurduğunu, bunun da "fimozis" deyilən xəstəliyə səbəb olduğunu deyirlər. Bəzən dəri geri çəkilir və yerinə qaytarılmır, bu zaman sünnət başının, yəni penisin qanqreninə səbəb olan "parafimozis" yaranır.

***Lalə Mehralı***

Səs
28 aprel
2023-cü il

## Evdən 7 000 manatlıq qızıl-zinət əşyaları oğurlanıb



Bakıda evdən 7 000 manatlıq qızıl-zinət əşyaları oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Səbail rayonunun Badamdar qəsəbəsindəki evlərin birindən 7000 manat dəyərində qızıl-zinət əşyalarının qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub.

Səbail Rayon Polis İdarəsinin 41-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən həmin evdə işləyən xadimə və həyat yoldaşı müəyyən olunaraq saxlanılıb. Araşdırma aparılır.

# Kimlər Dövlət hesabına vəkillə təmin olunacaq?

**Vəkilin prosesdə dövlət hesabına iştirakı qaydası müəyyənləşir. SİA xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılan və plenar iclasa tövsiyə edilən Mülki Prosessual Məcəlləyə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edəcək.

Birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.





Bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin(orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər, maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər), habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edəcək.

Bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;
- insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;
- valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;
- ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
- müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;
- maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

Yuxarıda qeyd olunan şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə ödənilmiş vəsaitin iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış digər şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməsini iş üzrə yekun qərarında qət edə bilər.

# Bəlkə də onun bu hərəkətini görüb, göz yumanlar olub...

"Bütün inkişaf etmiş dövlətlərdə olduğu kimi, bizim ölkədə də keçirilən kütləvi imtahanlarda tətbiq olunan buraxılış rejiminin ciddi aparılması iştirakçıların narahat edilməsi deyil, əksinə, hər kəsin təhlükəsizliyinin təmin olunmasına və şəffaf imtahan mühitinin yaradılmasına xidmət edir. DİM rəsmisinin açıqlamasını da nəzərə alaq ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda iştirakçıların və imtahan materiallarının təhlükəsizliyinin təmin edilməsi, həmçinin iştirakçılar üçün bərabər səviyyəli imtahan mühitinin yaradılması məqsədilə imtahan binalarına girişdə buraxılış rejimi tətbiq olunur. Buraxılış rejimi zamanı imtahana zidd əlavə vasitələrin binaya keçirilməsinin qarşısının alınması üçün fiziki olaraq üstlərinin yoxlanılması həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.





**TƏHSİL EKSPERTİ AÇIQLADI**

Nadir İsrafilov sözlərinə belə davam edib: "Baxmayaraq ki, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda iştirakçıların və imtahan materiallarının təhlükəsizliyinin təmin edilməsi, həmçinin iştirakçılar üçün bərabər səviyyəli imtahan mühitinin yaradılması məqsədilə imtahan binalarına girişdə buraxılış rejimi tətbiq olunur, bununla belə müxtəlif illərdə müxtəlif sayda məzunda mobil telefon aşkarlandığı üçün imtahandan xaric edilməsi halı bu günün özündə də davam edir.

İş o yerə çatıb ki, Dövlət İmtahan Mərkəzi son olaraq yenidən gələcək imtahan iştirakçılarına müraciət edərək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, dövlət qulluğuna qəbul, eləcə də digər imtahanlarla bağlı qaydalara, tələblərə tam riayət etməyə çağırıb. Bu sahədə mövcud tələbləri pozan şəxslərə qarşı ən ciddi tədbirlər görüləcəyi barədə məlumat yayıb, bir daha bildirib ki, Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda diqqət yetirilən vacib məqamlardan biri də imtahan prosesinin Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunan müvafiq qaydalara uyğun və şəffaf şəkildə təşkil olunmasını təmin etməkdir. Bütün imtahan iştirakçıları üçün zəruri şəraitin yaradılması, onların bərabər şərtlər altında imtahanlarda iştirakı, imtahanda davranış qaydalarına riayət edilməsinə nəzarət və həyata keçirilən digər tədbirlər imtahan verənlərin bilikləri qiymətləndirilərkən məhz ədalətli seçimin təmin edilməsinə yönəldilir.

Maraqlı olanı isə odur ki, sual oluna bilər ki, yoxlama prosesində bunu aşkar etmək niyə mümkün olmayıb? Bu sual da DİM-in yaydığı məlumatda cavabsız qalmayıb: "Təəssüflə bildiririk ki, bəzən imtahan iştirakçıları qadağan olunmuş vasitələri bədənlərinin müxtəlif yerlərində gizlədirlər və binanın girişində yalnız səthi toxunmaqla yoxlama aparıldığı üçün onları müəyyən etmək heç də həmişə mümkün olmur. Bəzən də iştirakçılar hansı binada imtahan verdiyini əvvəlcədən bildiyi üçün bir neçə gün əvvəl ora gəlib mobil telefonu binanın içində gizlədirlər. Belə çıxır ki, bu kimi yanaşmalarla arzuladığımız ədalətli seçimin təmin edilməsinə nail ola bilməyəcəyik. Bəlkə, problemin həlli üçün yüksək texnologiyanın funksionallığından yararlanaraq, şəxsin üzərində hər hansı bir yad əşyanı müəyyən edə biləcək müasir detektorlardan istifadə edək?

Paradoks yaranır: Bir yandan imtahana digər qadağan olunmuş vasitələr hələ bir yana qalsın, adi mobil telefonun keçirilməsinin qarşısını ala bilmirik, digər tərəfdən keçirənlərin imtahandan xaric edilməsi ədalətsizlik hesab edənlərin tənəsiylə üzləşirik. Keçirənlərə göz yumsaq isə, "çəzasızlıq sindromu"na yol açmaqla, bəri başdan bu kimi hallara daha geniş şəkildə rəvac vermək zərurəti qarşısında qalmış oluruq. Deməli, ya vəziyyətlə hesablaşmalı, ya da vəziyyətdən çıxış yolu kimi nəsə etməliyik...

Bununla belə, hesab edirəm ki, imtahana mobil telefon keçirən abituriyenti bu hərəkətinə görə imtahandan xaric etmək yeganə və uğurlu hesab ediləcək yol deyil. Bəlkə, bu abituriyent elə ən hazırlıqlı məzunlardan biri idi? Bəlkə, sadəcə olaraq "ehtiyat igidin yaraşığıdır" prinsipini əsas götürüb, sonra bunun peşmançılığını çəkib? Bəlkə də onun bu hərəkətini görüb, göz yumanlar olub...? Suallar çoxdur, fakt isə odur ki, bir yeniyetmənin düşünülmüş və ya düşünülməmiş əməli onun ümidini puça çevirmiş oldu... Belə hallar isə yeganə hal deyil".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**